RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 18 (8334) ÇƏRŞƏNBƏ, 29 yanvar 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# 32 görüş, 12 yeni mərkəzin açılışı, 8 səfər, 3 ali mükafat

## Birinci vitse-prezident Mehriban Əliyeva 2019-cu ildəki geniş ictimai-siyasi fəaliyyəti ilə ölkənin hərtərəfli inkişafına mühüm töhfələr verib

2019-cu il ölkəmiz üçün hərtərəfli uğurlu il oldu desək, yanılmarıq. Ölkənin sosial-iqtisadi həyatında, eləcə də daxili və xarici siyasətdə mühüm nailiyyətlərin əldə edilməsi, mütərəqqi islahatların gerçəkləşməsi bunu şərtləndirən reallıqdır.

Bütün bu proseslərin uğurla reallaşmasında Prezident İlham Əliyevlə çiyin-çiyinə çalışan, onun ən yaxın silahdaşı olan Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da böyük xidmətləri var. Ulu Öndər Heydər Əliyev dövlətçilik kursunun ən fəal təmsilçilərindən olan Birinci vitse-prezident Mehriban Əliyeva 3 ildir ona həvalə edilən məsuliyyətli missiyanın öhdəsindən böyük əzmkarlıqla, layiqincə gəlir və dövlətin müstəqilliyinin möhkəmlənməsində, xarici diplomatiyanın uğur qazanmasında bütün səy və bacarığını ortaya qoyur. Birinci vitse-prezidentin təkcə 2019-cu ildəki fəaliyyətinə nəzər yetirsək, deyilənlərin bir daha şahidi olarıq.

### Xarici səfərlər, görüşlər və "Dostluq" ordeni

Uzun müddətdir ölkənin ictimai və siyasi həyatında ən aparıcı simalardan biri kimi tanınan Mehriban xanım Əliyevanın fəaliyyəti təkcə Azərbaycanın hüdudları ilə məhdudlaşmır. Mehriban xanım ölkə xaricində Azərbaycanı ən yaxşı təbliğ edən insanlardan biridir və ictimai-siyasi fəaliyyətinin coğrafiyası kifayət qədər genişdir. Bu da əlbəttə ki, Azərbaycana böyük siyasi və mənəvi dividendlər gətirir.

Bu baxımdan 2019-cu il ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın siyasi karyerasında zənginliyi ilə yadda qaldı. Geniş ictimai-siyasi fəaliyyəti Azərbaycanın həm də dünya dövlətləri ilə etibarlı və strateji tərəfdaşlığına mühüm töhfələr verdi.

Ümumiyyətlə, Azərbaycan həqiqətlərinin tanınması və qəbul edilməsi istiqamətində görülən işlər son dövrlər məhz Mehriban Əliyevanın ölkənin Birinci vitse-prezidenti kimi məqsədyönlü fəaliyyəti nəticəsində daha geniş vüsət alıb.

Ölkənin ali rəhbərliyində təmsil olunması onun xaricdəki fəaliyyətinə də yeni, müsbət çalarlar və dinamizm gətirib. Dünyanın mədəniyyət beşiklərində müxtəlif tədbirlərin təşkili Azərbaycan reallıqlarının təqdimatında xüsusi rol oynayır. UNESKO-nun və ISESCO-nun xoşməramlı səfiri olaraq o, dinləri və mədəniyyətləri üz-üzə deyil, yanaşı aparmağın, bununla da tolerantlığın, sülhün və əmin-amanlığın bərqərar olması istiqamətində ölkəmizə və dünyamıza böyük xidmətin örnəyini yaradır.

2019-cu il yanvarın 22-də Mehriban Əliyeva Prezident İlham Əliyevlə birgə İsveçrə Konfederasiyasında səfərdə olub. Birinci vitse-prezident Davosda Dünya İqtisadi Forumu çərçivəsində "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: "Çinin trilyon dollarlıq baxışı" mövzusunda keçirilən sessiyada iştirak edib.

Martın 11-də Fransaya səfər edən Birinci vitse-prezident burada həm hökumət, həm də beynəlxalq şirkət rəhbərləri ilə mühüm görüşlər keçirib. Parisdə Fransanın Baş Naziri Eduard Filip ilə təkbətək görüş, Fransa Senatının sədri Jerar Larşe, Fransanın birinci xanımı Brijit Makron, sabiq Prezident Nikola Sarkozi, Fransa Milli Assambleyasının sədri Rişar Ferran, Fransanın iqtisadiyyat və maliyyə naziri Brüno Lömer ilə danışıqlar aparıb.

Həmçinin Birinci vitse-prezident "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşild, "Suez Groupe" şirkətinin beynəlxalq inkişaf üzrə icraçı vitse-prezidenti Erik Qebali və Fransanın Milli Xərçəng İnstitutunun təsisçisi və keçmiş prezidenti professor David Hayat ilə görüşüb. Mehriban Əliyeva Fransanın mədəniyyət naziri Frank Riyester ilə birgə Orsey muzeyini ziyarət edib. Səfər zamanı Azərbaycan-Fransa sənədləri imzalanıb.

Birinci vitse-prezident Mehriban Əliyeva Rusiya Federasiyasında rəsmi səfərdə olub. Həmin gün Rusiya Hökumətinin sədri Dmitri Medvedev ilə görüşən Mehriban xanım "Lujniki" Olimpiya Kompleksində Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanovanın Gimnastika Mərkəzi ilə tanış olub.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşdə isə Azərbaycan-Rusiya dövlət başçıları arasındakı dostluq münasibətləri, iki ölkənin strateji tərəfdaşlığı, iqtisadi, humanitar əlaqələri geniş müzakirə mövzusu olub.

Xatırladaq ki, Rusiya Prezidenti Vladimir Putin iki ölkə arasındakı münasibətlərin inkişafındakı xidmətlərinə görə Mehriban xanım Əliyevanı avqustun 13-də imzaladığı fərmana əsasən "Dostluq" ordeni ilə təltif etmişdi. Bu görüşdə Rusiya Prezidenti "Dostluq" ordenini Azərbaycanın Birinci vitse-prezidentinə təqdim etdi. Bu, əlbəttə ki, dünyada ən işgüzar birinci xanım kimi tanınan Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinə verilən növbəti böyük dəyər idi. Birinci vitse-prezident mükafatı belə dəyərləndirdi: "Rusiya Federasiyasının Prezidentindən bu cür qiymət eşitmək mənim üçün böyük şərəfdir. Çox şadam ki, bizim strateji tərəfdaşlığın möhkəmləndirilməsi işinə mənim də cüzi töhfəm var". Həqiqətən də Azərbaycanın yüksək dəyərlərini, humanizm prinsiplərini beynəlxalq aləmə təqdimində əvəzsiz rol oynayan Mehriban xanım genişmiqyaslı fəaliyyəti ilə dövlətlərarası dostluq münasibətlərinin möhkəmlənməsinə daim mühüm töhfələr verir.

Rusiyaya səfəri çərçivəsində Mehriban Əliyeva, həmçinin Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko ilə birgə şam etdi. Noyabrın 23-də Moskvanın Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisindəki "Azərbaycan" pavilyonunun əsaslı bərpa və təmirdən sonra açılış mərasimində və X Azərbaycan-Rusiya Regionlararası Forumunda iştirak etdi. Birinci vitse-prezident Rusiyaya rəsmi səfəri çərçivəsində noyabrın 24-də Dövlət Tretyakov Qalereyasında və Moskva Beynəlxalq Müasir İncəsənət Biennalesi ilə tanış oldu.

Ardı 2-ci səh.

# Dövlətin və xalqın mənafeyini layiqincə təmin edən müstəqil siyasət

## İlham ƏLİYEV: "Milli maraqlarımız həmişə birinci yerdədir"

Prezident İlham Əliyevin Dünya İqtisadi Forumu çərçivəsində keçirilən "Strateji baxış: Avrasiya" mövzusunda panel iclasında moderatorun sualına verdiyi cavab məlum həqiqətə yeni işıq saldı. Belə ki, həmin cavabı ilə dövlət başçısı Davosdan Azərbaycanın müstəqil siyasət həyata keçirdiyini bütün dünyaya bir daha bəyan etdi.

### Öz yolu olmayan dövlət beynəlxalq nüfuzdan da məhrumdur

Hər bir dövlətin beynəlxalq nüfuzu onun yeritdiyi siyasətin məzmun və mahiyyətindən asılıdır. Aydın məsələdir ki, bütün ölkələr dünya birliyinin tamhüquqlu subyekti olaraq öz milli maraqlarına cavab verən müstəqil siyasət kursu yürütmək istəyir. Amma bugünkü dünya nizamında bütün dövlətlər buna nail ola bilmirlər. Çox uzağa getmədən elə Ermənistanın timsalında bunu görmək mümkündür.

Hakimiyyət dəyişikliyinə, iqtidara yeni siyasi qüvvənin gəlməsinə baxmayaraq, rəsmi Yerevan dünyada nəyin baş verib-verməməsindən asılı olmayaraq müstəqil xarici siyasət keçirməkdən məhrumdur. Paşinyan hakimiyyətinin beynəlxalq məsələlərlə bağlı baxışları mütləq vassallığında olduqları dövlətlərlə bağlı olur və hansı addımlar atılması razılaşdırılır. Ermənistanın beynəlxalq əməkdaşlığı kənar dövlətlərlə, hətta xaricdəki diaspor təşkilatları ilə razılaşdırmadan həyata keçirməsinin mümkünsüzlüyü bu ölkənin müstəqil siyasətinin olmamasını təsdiqləyən faktorlardır.

Başqa bir nüans isə Ermənistanın hətta daxili məsələlərdə də asılı vəziyyətdə olmasıdır. İqtisadiyyatının aparıcı sahələrinin, energetika sektorunun tamamilə xarici investorlardan asılı vəziyyətə düşməsi bu ölkənin tamamilə forpost statusu daşıdığını göstərir.

Ardı 5-ci səh.

# Nazirlər Kabinetində koronavirus epidemiyasına qarşı qabaqlayıcı tədbirlərin görülməsinə dair məsələlər müzakirə edilib

Yanvarın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən Nazirlər Kabinetində, Dünya Səhiyyə Təşkilatının və Çin Xalq Respublikası (ÇXR) hökumətinin elan etdiyi kimi, Çinin Uxan şəhərində yayılmış və artıq dünyanın başqa regionlarında da qeydə alınmış koronavirus epidemiyasına qarşı qabaqlayıcı tədbirlərin görülməsi üçün müşavirə keçirilib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Baş Nazirin sədrliyi ilə keçirilən müşavirədə aidiyyəti dövlət qurumlarının rəhbərləri iştirak ediblər.

Müşavirədə epidemiyanın Azərbaycana daxil olmasının qarşısının alınması üçün müzakirələr aparılıb.

Müşavirənin yekununda belə hallar üçün nəzərdə tutulmuş müvafiq tədbirlərin görülməsi - sərhəd-keçid məntəqələrində gücləndirilmiş iş rejiminə keçilməsi, ÇXR-dən, xüsusilə epidemiya zonasından ölkəyə gələn bütün şəxslərin mütləq şəkildə ciddi tibbi müayinədən keçirilməsi və nəzarət altına alınması, xüsusi riskli hesab olunan və virusun keçə biləcəyi ərzaq məhsullarının siyahısının hazırlanması və ərzaq bazarında həmin məhsullara nəzarətin gücləndirilməsi, səhiyyə ocaqlarında qaynar xətlərin yaradılması, virus və onunla mübarizə metodları haqda əhali ilə maarifləndirmə işlərinin aparılması, vəziyyətlə bağlı əhaliyə mütəmadi məlumat verilməsi haqda qərar qəbul edilib.

Əhalinin nəzərinə çatdırılır ki, ölkədə belə vəziyyətlərdə ehtiyacın yarana biləcəyi bütün tibbi ləvazimatlar kifayət qədərdir. O da vurğulanıb ki, hazırda ölkəmizdə belə xəstəliyə yoluxma halları müşahidə olunmayıb, Azərbaycanda əhalinin sağlamlığı ilə bağlı vəziyyət dövlətin tam nəzarətindədir və narahatlıq üçün heç bir əsas yoxdur.

Müşavirədə Səhiyyə nazirinin rəhbərliyi və aidiyyəti qurumların iştirakı ilə İşçi Qrupunun yaradılması qərarı qəbul edilib.

Tədbirlərin görülməsində Dünya Səhiyyə Təşkilatının müvafiq tövsiyələri nəzərə alınır.

Azərbaycanın ÇXR-dəki səfirliyi və Çinin ölkəmizdəki səfirliyi ilə sıx əlaqə saxlanılır. Habelə Azərbaycanın Çindəki səfirliyi bu ölkənin dövlət qurumları və Çində olan vətəndaşlarımızla daimi təmasdadır.

# Ötən il qeyri-neft-qaz sektorunda ÜDM istehsalı 3,5, əhalinin gəlirləri 7,4 faiz artmışdır

Dövlət Statistika Komitəsi (DSK) ayrı-ayrı sahələr üzrə ötən ilin sosial-iqtisadi sahədəki yekunlarına aid məlumatları açıqlayandan sonra bütövlükdə 2019-cu ilin makroiqtisadi göstəricilərini əks etdirən hesabatı yayıb.

Bildirilir ki, keçən il ölkə üzrə 81,7 milyard manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur. Bu isə 2018-ci ildəkindən 2,2 faiz çoxdur. Hesabat dövründə əlavə dəyər istehsalı iqtisadiyyatın qeyri-neft-qaz sektorunda 3,5, neft-qaz sektorunda 0,4 faiz artmışdır.

ÜDM-in 41,4 faizi sənaye, 10 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 6 faizi nəqliyyat və anbar təsərrüfatı, 7,3 faizi tikinti, 5,7 faizi kənd və meşə təsərrüfatları, eləcə də balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə, 16,7 faizi digər sahələrdə istehsal edilmişdir. Məhsula və idxala xalis vergilər ÜDM-in 8,7 faizini təşkil etmiş, əhalinin hər nəfərinə 8247 manat əlavə dəyər düşmüşdür.

İl ərzində ölkə üzrə 46,7 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir ki, bu da 2018-ci ildəkindən 1,8 faiz çoxdur. Ümumilikdə bu dövrdə sənayenin qeyri-neft-qaz sektorunda məhsul istehsalı 14,3 faiz artmışdır. Sənaye məhsullarının 69,9 faizi mədənçıxarma, 25,2 faizi emal, 4,2 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,7 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmişdir.

Ardı 4-cü səh.

9 fevral Milli Məclisə seçkilər günüdür

# Hərtərəfli hazırlıq görülmüşdür

Ölkənin ikinci böyük şəhəri Gəncədə də Milli Məclisə seçkilərin mütəşəkkil keçirilməsi üçün geniş hazırlıq işləri görülmüşdür. 39 saylı Kəpəz (Gəncə) birinci seçki dairəsinin məntəqələrində olarkən bunun şahidi olduq.

Dairə seçki komissiyasının sədri Elbar Əhmədovla söhbət zamanı dedi ki, seçici siyahıları dəqiqləşdirilmiş, bütün məntəqələr lazımi vasitələrlə təmin edilmiş, seçicilərin istədikləri namizədə sərbəst səs verməsi üçün bütün şərait yaradılmışdır.

Səsvermə kabinələri qurulmuş, məntəqələr rabitə xətti, elektrik generatoru və təşviqat vasitələri ilə təmin olunmuşdur. Seçicilərə bildirişlərin paylanması da başa çatdırılmışdır. Seçkilərin azad və şəffaf keçməsi üçün qeydiyyatdan keçmiş 361 nəfər müşahidəçi üçün lazımi yerlər ayrılmışdır. Seçkilərin gedişini onlayn izləmək üçün 9 məntəqədə veb-kamera quraşdırılmışdır.



39 saylı Kəpəz (Gəncə) birinci seçki dairəsində 8 nəfər deputatlığa namizəd qeydə alınmışdır. Onlardan biri Yeni Azərbaycan Partiyasının, qalanı isə namizədliyini özü sürənlərdir. Onların hamısına təbliğat aparmaları üçün bərabər şərait yaradılmışdır. Bunun üçün açıq və qapalı yerlər ayrılmışdır. Bütün vətəndaşların seçkilərdə iştirakını təmin etmək üçün ilk dəfə səs verəcək gənclərlə, hətta yaşı 80-dən çox olan ahıllarla görüşlər keçirilmiş, bu seçkilərin ölkəmizin həyatında böyük əhəmiyyət daşıması barədə söhbətlər aparılmışdır. Seçki məntəqələrinə gəlmək ehtimalı az olan xəstə vətəndaşların öz istəklərinə uyğun olaraq evlərinə daşınan seçki qutusunun aparılması üçün hazırlıq işləri görülmüşdür. Məntəqələrin hamısında fiziki imkanları məhdud olan şəxslər üçün pantuslar quraşdırılmışdır.

Dairəni əhatə edən məntəqələrin bir neçəsində olduq. Hamısında böyük canlanma hiss olunurdu. 13 saylı məntəqə seçki komissiyasının sədri Nizami Rzayev parlament seçkilərinin mütəşəkkil keçəcəyinə əminlik ifadə etdi. Dedi ki, bu vacib kampaniyanın demokratik və aşkarlıq şəraitində keçməsi üçün lazımi şərait yaradılıb.

Ümumiyyətlə, fevralın 9-da Milli Məclisə keçiriləcək seçkilərə hərtərəfli hazırlıq görülmüş, seçici siyahıları dəqiqləşdirilmiş, bildirişlər paylanmışdır.

*"Azərbaycan"*

# Ermənistanda hakimiyyət çaxnaşması böyüyür

## Paşinyan keçmiş iqtidar təmsilçilərinə qarşı həbs dalğasını davam etdirir

Son vaxtlar Ermənistanda hakimiyyətdaxili mübarizənin getdikcə kəskinləşməsi və bu fonda baş nazir Nikol Paşinyanın rəqiblərini sıradan çıxartmaq üçün müxtəlif bəhanələr uydurması ölkədə vəziyyəti daha da ağırlaşdırmaqdadır.

Proseslər göstərir ki, Paşinyan mövqelərini qorumaq və ölkədə rəhbərliyini möhkəmləndirmək üçün keçmiş prezidentlər Robert Koçaryan və Serj Sarkisyan komandasını təmsil edənlərə, onların yaxınlarına qarşı həbs dalğasını davam etdirir.

Bunun ən real təsdiqi Ermənistanın keçmiş prezidentlərindən Robert Koçaryanın həbs olunması, Sarkisyan haqqında isə cinayət işinin qaldırılmasıdır. İndi baş nazir üçün əsas hədəf Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyanı sıradan çıxarmaqdır. Bir sözlə, Ermənistan daxilində baş verən son proseslər bu ölkədə mövcud hakimiyyətlə keçmiş hərbi xunta arasında çəkişmənin getdikcə dərinləşməkdə olduğunu göstərir.

Ötən gün Ermənistan Xüsusi İstintaq Xidmətinin müstəntiqləri və Polisin Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Baş İdarəsinin əməkdaşları Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyanın mənzilində axtarış aparıblar.

Ardı 7-ci səh.









# 32 görüş, 12 yeni mərkəzin açılışı, 8 səfər, 3 ali mükafat



Əvvəli 1-ci səh.

Azərbaycanın dünyada tanıdılması işində Mehriban Əliyeva amili çox mühüm əvəzsiz rola malikdir. Erməni lobbisinin və antiazərbaycançı qüvvələrin ölkəmizə qarşı yaratdığı mənfi stereotiplərin dağıdılması, Azərbaycan barədə həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması istiqamətində Birinci vitse-prezidentin milli maraqlarımıza əsaslanan tutduğu yol bu gün ölkəmizin dünyada sülhün və firavanlığın carçısı kimi tanınmasında da çox böyük rol oynayır.

## Beynəlxalq əlaqələrə mühüm töhfə

Digər illərdə olduğu kimi, 2019-cu ildə də Azərbaycanda böyük konfranslar, forumlar keçirildi. Ölkəmizə 40-a yaxın dövlət və hökumət rəhbərləri, beynəlxalq təşkilatların rəsmiləri təşrif buyurdular. Bütün bunlar Azərbaycanın beynəlxalq əlaqələrinə mühüm töhfə verdi.

Elə bunun nəticəsidir ki, getdikcə ölkəmizdə xarici ölkələrin səfirliklərinin sayı artmaqdadır. Bu gün Azərbaycanda 65 diplomatik nümayəndəlik, 13 beynəlxalq təşkilat və 4 baş konsulluq fəaliyyət göstərir. Bu ölkələrlə Azərbaycan qarşılıqlı maraq və hörmət əsasında əməkdaşlıq qurub və bu əlaqələr inkişaf etdirilir. Bu gün Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınır.

Ötən il Birinci vitse-prezident ölkəmizə gələn dövlət rəsmiləri, beynəlxalq təşkilat rəhbərləri ilə br çox görüşlər keçirib. Mehriban xanım Əliyeva UNESCO-nun Baş direktoru xanım Odri Azule, BMT Baş katibinin müavini Liu Cenmin, Bakıda səfərdə olan Gürcüstan Prezidenti Salome Zurabişvili, Ukraynanın birinci xanımı Yelena Zelenskaya, Fransanın sabiq Prezidenti Nikola Sarkozi, Prezident İlham Əliyevlə birgə Moskvanın və bütün Rusiyanın Patriarxı Kirillə, eləcə də Böyük Britaniyanın Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson (2 dəfə), İtaliya Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellati ilə görüşüb.

Bununla yanaşı, UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak etmək üçün ölkəmizə gələn Fransanın Arktika və Antarktika məsələləri üzrə beynəlxalq danışıqlara məsul səfiri, sabiq ekologiya, dayanıqlı inkişaf və energetika naziri xanım Mari-Seqolen Ruayal və Fransa Sahibkarlar Təşkilatı-MEDEF Biznes Şurasının prezidenti Jofrua Ru de Beziö ilə görüş keçirib.

Həmçinin Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanova ilə görüşüblər. Azərbaycanla Rusiya arasında idman sahəsində əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə İrina Aleksandrovna Viner-Usmanova cənab İlham Əliyevin Sərəncamına əsasən "Dostluq" ordeni ilə təltif edilib. Dövlət başçısı ordeni İrina Viner-Usmanovaya təqdim edib.

Noyabrın 14-15-də Bakıda Dünya Dini Liderlərinin II Sammiti keçirilib. Mərasimdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva da iştirak ediblər.

Ümumiyyətlə, ölkə liderinin qətiyyətli siyasi iradəsi, Birinci vitse-prezidentin yüksək dövlətçilik təfəkkürü ilə milli-mənəvi dəyərlərə verilən önəm sayəsində bəşəri birliyə xidmət edən multikulturalizm, İslam həmrəyliyi kimi ideyaların reallaşması istiqamətində uğurlu addımlar atılır və bu addımlar beynəlxalq aləmdə böyük siyasi-mənəvi rezonans yaradır.

Keçirilən bütün görüşlər Azərbaycanın beynəlxalq uğurlarını artırdı, getdikcə şaxələnən münasibətlərinə müsbət töhfəsini verdi. Birinci vitse-prezidentin söylədiyi kimi, ölkələr və xalqlar arasında səmimi münasibətlərin formalaşmasında humanizm, xeyirxahlıq, insanlıq diplomatiyasını heç bir şey əvəz edə bilməz.

## Gəncə, Şamaxı, İsmayıllıda yeni obyektlərin açılışı

Prezident İlham Əliyevlə birgə daxili və xarici səfərlərdə iştirak edən ölkənin birinci xanımı Mehriban Əliyeva Birinci vitse-prezident kimi respublikada müxtəlif obyektlərin açılışında iştirak edib, Bakıda və bölgələrdə vətəndaşlarla səmimi görüşlər keçirib, fikirlərini dinləyib, problemləri ilə maraqlanıb.

Fevral ayının 14-də Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Gəncə şəhərinə səfər ediblər. Ulu Öndər Heydər Əliyevin Gəncə şəhərinin mərkəzindəki abidəsini ziyarət etdikdən sonra Mehriban Əliyeva Regional İnkişaf İctimai Birliyinin nümayəndələri ilə görüşüb, 18 nömrəli tam orta məktəbə, uşaq evinə, 32 nömrəli körpələr evi-uşaq bağçasına və Mir Cəlal Paşayevin ev-muzeyinə baş çəkib. Həmçinin Birinci vitse-prezident və Leyla Əliyeva Gəncədə "İmamzadə" dini kompleksini ziyarət edib, "Xan bağı" mədəniyyət və istirahət parkında sakinlərlə görüşüblər.

Martın 7-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramı" çərçivəsində Şamaxının Şəhriyar qəsəbəsində yeni inşa olunmuş 4 saylı körpələr evi-uşaq bağçasının açılışında iştirak ediblər.

Şamaxı səfəri zamanı Mehriban xanım Əliyeva fevralın 5-6-da burada baş verən zəlzələnin fəsadlarının aradan qaldırılması ilə bağlı görülən işlərlə tanış olub, Saray nənə üçün 1 aya tikilən yeni mənzilə baş çəkiblər.

Sentyabrın 14-də Birinci vitse-prezident Mehriban Əliyeva Şamaxı və İsmayıllı rayonlarında səfərdə olub. Birinci vitse-prezident və qızı Leyla Əliyeva Şamaxının Məlikçobanlı kəndində yeni tikilmiş Gülağa Ağayev adına tam orta məktəbin, İsmayıllı şəhərinin Vahab Osmanov küçəsində inşa olunan yeni uşaq bağçasının, İsmayıllının İvanovka kəndindəki Mədəniyyət Sarayının açılışlarında iştirak ediblər. Şamaxı Cümə məscidini ziyarət edən Mehriban xanım həmçinin şəhərin Şirvanşah İbrahim küçəsi, 26 ünvanında yaşayan Hicran İsmayılovaya məxsus, bu il fevralın 5-də və 6-da baş verən zəlzələ nəticəsində qəzalı vəziyyətə düşmüş evin yerində Heydər Əliyev Fondu tərəfindən inşa edilən evdə yaradılan şəraitlə tanış olub. Eyni zamanda Muğanlı kənd sakini Zamiq Səfərova məxsus, zəlzələ nəticəsində qəzalı vəziyyətə düşmüş evin yerində inşa olunan evə baxıb.

Zəlzələ İsmayıllı rayonuna da ziyan vurmuşdu. Dövlət başçısı bu rayonda da zəlzələnin ziyan vurduğu evlərin bərpası ilə bağlı tapşırıqlarını vermişdi. Birinci vitse-prezident Mehriban Əliyeva İsmayıllı rayonuna səfəri çərçivəsində Diyallı kənd sakini Sədiqə Orucovaya məxsus, zəlzələ nəticəsində qəzalı vəziyyətə düşmüş evin yerində inşa edilən yeni evdə olub, burada yaradılan şəraitlə maraqlanıb.

Prezident İlham Əliyev 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan edilməsi haqqında Sərəncam imzalamışdı. Görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar müvafiq tədbirlər planı hazırlandı, il ərzində ölkəmizdə və xaricdə silsilə tədbirlər keçirildi.

Dekabrın 6-da Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə ölkəmizdə ağacəkmə kampaniyası keçirildi. Bir gündə ölkədə 650 min ağac əkildi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Nəsiminin vətəni Şamaxı rayonunda ağacəkmə aksiyasında iştirak etdilər.

Ötən ilin iyun ayının 12-də isə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva əsaslı şəkildə təmir və bərpa olunan Abşeron rayonunda "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun açılışında iştirak ediblər.

## Ulu Öndərin siyasi irsinin ən layiqli təbliği

Mayın 10-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasim keçirildi.

Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvlərinin iştirak etdiyi mərasimdə dövlət başçısı geniş nitq söyləyərək Ulu Öndərin Azərbaycan üçün unudulmaz siyasi fəaliyyəti və adını daşıyan fondun bu müddət ərzində gördüyü işlərdən söz açdı. Bildirdi ki, bu müddət ərzində fond bir çox sahələrdə - mədəniyyət, incəsənət, təhsil və digər sahələrdə çox böyük işlər görüb. Təhsil sahəsində "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı ölkə miqyasında geniş vüsət aldı və ondan sonra dövlət xətti ilə 3 min 200-dən çox məktəb tikildi, təmir edildi.

"Fond səhiyyə sahəsində çox böyük işlər görür və bir çox hallarda bu işlər haqqında heç məlumat da verilmir. Yəni ictimaiyyət bəlkə də məlumatlı deyil ki, nə qədər böyük işlər görülür, nə qədər insana kömək göstərilir, nə qədər insanı - uşağı, xəstəni fondun xətti ilə aparılan müalicə normal həyata qaytarıb. Fondun çoxşaxəli fəaliyyəti Azərbaycanı dünyada tanıdır. Fondun dünya miqyasında çox böyük hörməti var. Azərbaycan reallıqlarının dünyaya çatdırılması istiqamətində - bizim musiqimizi, xalçaçılıq sənətini, muğam sənətini, digər mədəniyyət incilərimizi dünyaya çatdırmaq, təqdim etmək üçün fond çox böyük işlər görür. Kitablar çap olunur, disklər hazırlanır, sərgilər, elmi-praktik konfranslar, simpoziumlar keçirilir. Mən fondun əməkdaşlarını əldə edilmiş uğurlar münasibətilə təbrik edirəm və eyni zamanda bildirmək istəyirəm ki, fond Ulu Öndərin siyasi irsini təbliğ etmək üçün də böyük işlər görür".

## Uşaqların, kimsəsizlərin ən böyük hamisi

Gələcəyimiz olan uşaqların təlim-tərbiyəsinin ən yüksək səviyyədə təşkili, onların sağlamlığının qorunması və vətənpərvər, savadlı şəxsiyyət kimi yetişməsi istiqamətində dövlət çox mühüm layihələr həyata keçirir.

Heydər Əliyev Fondunun fəaliyyətində də yeni körpələr evi, uşaq bağçalarının inşası, mövcud olanların isə yenidən qurulması əsas yer tutur. Bütün bunlar sübut edir ki, fond gələcəyimiz olan uşaqların təlim-tərbiyəsinin ən yüksək səviyyədə təşkili istiqamətində Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətə mühüm töhfələr verir. Mehriban xanım Əliyeva uşaqların təhsil aldıqalrı bu müəssisələrə dəfələrlə baş çəkib, yaradılan şəraitlə maraqlanıb.

2019-cu ildə Birinci vitse-prezident Bakıda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilən Daxili İşlər Nazirliyinin Xətai rayonundakı 6 saylı uşaq bağçasının, Yasamal rayonundakı 11 saylı körpələr evi-uşaq bağçasının, Sabunçu rayonunda 260 saylı, Binəqədi rayonunda 141 saylı körpələr evi-uşaq bağçalarının, Xəzər rayonunun Binə qəsəbəsində "Ümid yeri" uşaq sığınacağının yeni inşa olunan binasının və Uşaq Psixonevroloji Mərkəzinin yeni korpusunun açılışlarını edib.

Həmçinin Mehriban xanım Əliyeva ötən il Nərimanov rayonundakı Uşaq Psixonevroloji Mərkəzində, Buzovnadakı 229 saylı uşaq bağçasında, Nəsimi rayonundakı 268 nömrəli xüsusi məktəbdə, Mərdəkandakı gimnaziyada və 32 saylı Laçın rayon məktəbində, Nəsimi rayonundakı 1 nömrəli körpələr evində, Kürdəxanı qəsəbəsində Hüseynbala Ağaverdiyev adına 113 saylı tam orta məktəbdə, Yasamal rayonunda Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbində, Abşeron rayonunun Saray qəsəbəsində 2 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsində, Sabunçu rayonunun Pirşağı qəsəbəsindəki 10 saylı sanatoriya tipli internat məktəbində, Nərimanov rayonundakı 64 saylı körpələr evi-uşaq bağçasında, Nərimanov rayonundakı "Birgə və Sağlam" İctimai Birliyinin nəzdində fəaliyyət göstərən autizm sindromlu uşaqlar üçün Reabilitasiya Mərkəzində olub.

Mütəmadi olaraq körpələr evinə, uşaq bağçalarına, reablitasiya mərkəzlərinə, valideyn himayəsindən məhrum və xüsusi qayğıya ehtiyacı olan uşaqlara baş çəkən Mehriban Əliyeva onlar üçün təşkil olunan müxtəlif əyləncə və istirahət proqramlarında iştirak edir. Həmçinin uşaqların tibbi bərpa və təlim-tərbiyə prosesləri ilə yaxından maraqlanıb, mövcud problemlərin həllinə dair tapşırıqlar verir.

## Əsgər anası

İyul ayında Birinci vitse-prezident əsgər anası kimi Prezident İlham Əliyevin 2019-cu il 3 iyun tarixli Sərəncamına uyğun olaraq Dövlət Təhlükəsizliyi Xidmətinin N saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması mərasimində iştirak etdi.

Bu günün Dövlət Təhlükəsizliyi Xidmətinin Əlahiddə Alayının şəxsi heyəti üçün əlamətdar gün olduğunu deyən Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-leytenant Əli Nağıyev həqiqi hərbi xidməti başa vuran əsgərləri və onların valideynlərini təbrik etdi, hərbi xidmət zamanı əsgərlərin hərbin sirlərinə dərindən yiyələndiklərini vurğuladı. Prezident, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrin bütün qoşun növlərində olduğu kimi, bu hərbi hissədə də xidmətin yüksək tələblər səviyyəsində təşkili üçün hərtərəfli şəraitin yaradıldığını bildirdi.

Əsgərlərin təntənəli marşla addımlamasından sonra Birinci vitse-prezident Mehriban Əliyeva tədbirdə iştirak edən valideynlərlə görüşdü, onlarla söhbət etdi.

## Doğum gününü məcburi köçkünlərlə birgə keçirdi

Şəxsiyyətə hörmət, vətəndaşa həssas münasibət, insanlara qayğı və təmənnasız xidmət amalını özünün həyat kredosuna çevirmiş Mehriban xanım Əliyeva gördüyü işlərlə cəmiyyətdə mərhəmət və xeyirxahlığın ali ünvanına çevrilib.

Xüsusən də qaçqın və məcburi köçkünlərin problemlərinin həlli istiqamətindəki fəaliyyətinə nəzər yetirsək görərik ki, Mehriban xanım Əliyevanın bu istiqamətdə misilsiz xidmətləri var. Elə 2017-ci ildə Birinci vitse-prezident təyin olunduqdan sonra keçirdiyi ilk müşavirəsini qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması məsələsinə həsr edən Mehriban xanım Əliyevanın 2019-cu ilin avqustun 26-da, məhz doğum günündə bir qrup məcburi köçkünlə görüşməsi də bunu təsdiqləyən reallıqdır.

Ümumiyyətlə, 2003-cü ildən bugünədək Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, onların məşğulluğunun təmin edilməsi ilə bağlı 70-dən çox fərman və sərəncam imzalayıb, bir çox proqramlar qəbul edib. Dövlət səviyyəsində bu istiqamətdə atılan addımlarla yanaşı, Heydər Əliyev Fondu da fəaliyyətində qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi diqqət yetirir. Məcburi köçkünlərin müvəqqəti yaşayış yerləri və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi diqqətin təzahürüdür. Ölkənin müxtəlif yerlərində qaçqın və məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması üçün 106 qəsəbə və şəhərcik salınıb. 106-cı "Qobu Park-2" yaşayış kompleksidir. Bu kompleksin inşası Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilib. Yəni bu istiqamətdə atılan mühüm addımlardan danışarkən Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən tədbirləri də vurğulamaq lazımdır. Artıq Bakının Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün yaşayış kompleksi inşa edilib. Abşeron rayonunun Masazır, Mehdiabad, həmçinin Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edilib. Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzilə Binəqədi rayonu, 9-cu mikrorayon ərazisindəki Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasından məcburi köçkün ailələri köçürülüb. Sumqayıtdakı 1005 məcburi köçkün ailəsi üçün inşa olunmuş yaşayış binaları da istifadəyə verilib. Oktyabrın 8-də isə "Qobu Park-2" yaşayış kompleksinin açılışı olub. Dövlət başçısı İlham Əliyev və xanımı Mehriban Əliyevanın iştirakı ilə keçirilən mərasimdə qeyd edildi ki, təməli 2018-ci ilin sentyabrında qoyulan bu kompleksdə, ümumilikdə, onmərtəbəli 13 bina ilə yanaşı, məktəb, uşaq bağçası, poliklinika, gimnastika, güləş və trenajor zalları, şahmat mərkəzi, market, iaşə obyektləri yaradılıb. Ərazidə eyni zamanda istirahət parkı, uşaq əyləncə meydançası, eləcə də 3 idman meydançası inşa olunub. Bir sözlə, burada sakinlərin sosial məsələlərinin həlli üçün hərtərəfli infrastruktur qurulub.

Doğum günündə Birinci vitse-prezident və qızı Leyla Əliyeva həmçinin Bilgəhdəki Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsində olublar. Mehriban Əliyeva əvvəlcə burada sağlamlığı məhdud insanların yaşayışı ilə maraqlandı, onlarla söhbət etdi. Müəssisə sakinləri ilə görüşdə ahıl insanlar dövlətin onlara diqqət və qayğısından razılıqlarını bildirdilər, rahat yaşamaları üçün hər cür şəraitin yaradıldığını vurğuladılar. Qeyd olundu ki, müəssisənin sakinləri arasında yaradıcı insanlar, müxtəlif sənət sahibləri var. Burada yaşayan ahıllar müxtəlif səhiyyə ocaqlarında müayinə edilir, onlar üçün mütəmadi olaraq konsertlər, bayram şənlikləri təşkil olunur.

Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsində hazırda 235 nəfər yaşayır. Azərbaycan dövləti tərəfindən yaşlı nəslə xüsusi diqqət və qayğı göstərilir. Dövlətimiz onların ən böyük himayəçisidir. Ahılların sosial müdafiəsinin gücləndirilməsi, sağlamlıqlarının qorunması məqsədilə ölkəmizdə davamlı tədbirlər həyata keçirilir.

Həmin gün Mehriban Əliyeva və qızı Leyla Əliyeva Bibiheybət ziyarətgah kompleksini də ziyarət etdilər və onlara məsciddə müqəddəs "Qurani-Kərim" hədiyyə olundu.

## Hərbçilər hər zaman diqqət mərkəzində

Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondu "2016-cı ilin aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsini həyata keçirib.

2017-ci ildə fondun və müvafiq dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə yaradılan işçi qrupu 2016-cı il aprel döyüşləri zamanı yaralanmış və protezləşməyə ehtiyacı olan hər bir əsgər və zabitlə görüşlər keçirib, onlara fərdi yanaşma tətbiq olunub. Belə ki, aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin fərdi xüsusiyyətləri, onların aktivlik dərəcələri, həyat tərzləri, məşğuliyyətləri və hər bir istifadəçinin protezlərə olan fərdi tələbləri təhlil edilərək onlar üçün uyğun, müasir protez istehsalçıları olan qabaqcıl şirkətlərin yüksək texnologiyalı məhsulları seçilib.

Tətbiq edilən yeni protezlərin texniki imkanları amputasiya olunmuş hissə ilə hərəkət yaradır. Bunun sayəsində protezlə ayaq və yaxud əl bir-birinə maksimum uyğunlaşmış olur. İstifadəçi protezi amputasiya olunmuş hissənin davamı kimi hiss edir və daha rahat addım atır, aktiv hərəkət edir.

Qarabağ müharibəsi əlillərinə dövlət qayğısı siyasətinə dəstək məqsədi daşıyan bu layihənin davamı olaraq 2018-ci və 2019-cu illərdə daha bir qrup Qarabağ müharibəsi əlili fondun dəstəyi ilə yüksək texnologiyalı protezlərlə təmin olunub. Ümumilikdə, layihə çərçivəsində protezlərlə təmin olunan 100-dən çox Qarabağ müharibəsi əlili artıq aktiv həyata qayıdaraq əmək fəaliyyətini davam etdirir.

2019-cu il aprelin 3-də fond tərəfindən yüksək texnologiyalı protezlərlə təmin olunan hərbçilərlə görüşən Birinci vitse-prezident səmimi söhbət zamanı bildirib ki, onlar hər bir insan üçün çox dəyərli olan sağlamlıqlarını Vətən, torpaq yolunda qurban veriblər. Güllələr, bomba altında Azərbaycan uğrunda, torpağımız, Vətənimiz uğrunda həyatlarını qurban verməyə hazır olublar: "Mən fəxr edirəm ki, Azərbaycanın belə oğulları var, mənim belə qardaşlarım var. Mən hər zaman deyirəm ki, Azərbaycan çox zəngin ölkədir, sərvətləri, gözəl təbiəti var. Amma bizim ən böyük sərvətimiz Azərbaycan xalqıdır, Azərbaycan insanıdır. Doğrudan da Azərbaycan xalqı fəxr etməlidir ki, sizin kimi oğullar yetirib. Analarımız fəxr etməlidirlər ki, sizin kimi igid övladlar böyüdüblər. Belə xalqla, belə əsgərlərlə, zabitlərlə, belə qardaşlarla biz Qarabağı mütləq qaytaracağıq. Qarabağın hər bir kəndində, hər bir şəhərində Azərbaycan bayrağı dalğalanacaq".

## Uğurlu fəaliyyət, qazanılan nailiyyətlər

Aprelin 26-da Birinci vitse-prezident Mehriban Əliyeva "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunda görülən işlərlə tanış oldu.

Birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, Kiçik Qala küçəsində, Qala divarları boyunca yerləşən kafe və restoranların təmiri işlərinin yay aylarında başa çatdırılması nəzərdə tutulur. Birinci vitse-prezident burada aparılan işlərin yüksək səviyyədə həyata keçirilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.

Martın 29-da Birinci vitse-prezident Mehriban Əliyeva Bakıda diplomatik missiya rəhbərlərinin həyat yoldaşları ilə görüşdü. Azərbaycanın çoxmillətli və çoxkonfessiyalı ölkə olduğunu söyləyən Mehriban xanım Əliyeva vurğulayıb ki, əsrlərboyu burada müxtəlif dinlərin və millətlərin nümayəndələri dostluq və sülh şəraitində yaşayıblar.

Minilliklərlə formalaşan bu tolerantlıq və multikulturalizm ənənələri bu gün də Azərbaycan dövlətinin siyasətində öz əksini tapır və hər bir azərbaycanlının qəlbində yaşayır: "Mən əminəm ki, siz Azərbaycanın ən böyük sərvəti olan insanlarımızın qonaqpərvərliyini, istiqanlılığını, səmimiliyini, insansevərliyini hiss etmisiniz. Ümidvaram ki, siz ölkəmizi tərk etdikdən sonra da Azərbaycan sizin qəlbinizdə xoş anlarla, sevinc dolu xatirələrlə yaşayacaq və yenidən ölkəmizə səfər etməyi unutmayacaqsınız".

İyunun 24-də Bakıda dünyanın 190-dan çox ölkəsindən 500-dən artıq nümayəndənin iştirak etdiyi BMT və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə keçirdiyi BMT-nin Dövlət Xidmətləri Forumunda ölkəmiz mükafatlandırıldı. Tədbirdə çıxış edən BMT Baş katibinin iqtisadi və sosial məsələlər üzrə müavini Liu Cen Min ölkəmizdə rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində BMT-nin xüsusi mükafatını Birinci vitse-prezident Mehriban Əliyevaya təqdim etdi.

İyunun 30-da Bakıda, Heydər Əliyev Mərkəzində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının açılış mərasimi keçirildi. Sessiyanın qərarına əsasən, Azərbaycanın "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" adlı nominasiyası UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edildi. Bundan əvvəl UNESKO-nun Ümumdünya İrs Siyahısına "İçərişəhər, Qız qalası və Şirvanşahlar Saray Kompleksi", "Qobustan Qaya Sənəti Mədəni Landşaftı", Qeyri-Maddi Mədəni İrs Siyahısına isə xalqımızın qeyri-maddi mədəni irsinin 13 nümunəsi daxil olunmuşdu.

Birinci vitse-prezident oktyabrın 1-də Azərbaycan əsilli dünyaca məşhur müğənni və bəstəkar Sami Yusufla görüşərək müğənniyə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"nu təqdim etdi.

Bakıda keçirilən Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının xanımları oktyabrın 25-də Heydər Əliyev Mərkəzində olublar. Sərgilərlə tanışlıqdan sonra keçirilən görüşdə Qoşulmama Hərəkatının əhəmiyyətinə toxunan Birinci vitse-prezident Mehriban Əliyeva vurğulayıb ki, BMT-yə üzv dövlətlərin üçdəiki hissəsini özündə birləşdirən Qoşulmama Hərəkatının Bakı Zirvəsi hərəkatın gələcək inkişafına və üzv dövlətlərin münasibətlərinin həmrəylik və qarşılıqlı anlaşma ruhunda möhkəmlənməsinə mühüm və fərqli töhfəsini verəcək.

Ötən il Mehriban xanım Əliyeva həmçinin dahi bəstəkar, müasir Azərbaycan musiqi sənətinin banisi Üzeyir Hacıbəylinin zəngin irsinin qorunub saxlanılmasına və gələcək nəsillərə çatdırılmasına verdiyi əvəzsiz töhfələrə görə Bəstəkarlar İttifaqının təsis etdiyi "Üzeyir Hacıbəyli" fəxri medalı ilə təltif edildi.

Birinci vitse-prezident dekabrın 4-də milli musiqi mədəniyyətimizin görkəmli nümayəndəsi, Xalq artisti Əlibaba Məmmədovun evində qonaq olub, onun səhhəti ilə maraqlanıb və hər zaman istənilən köməyə hazır olduğunu söyləyib.

## Ölkəmizi yeni qələbələr və yeni nailiyyətlər gözləyir

İlin son tədbirini, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramının sevincini də Birinci vitse-prezident uşaqlarla birgə yaşadı. Dekabrın 30-da həm Heydər Əliyev Fondunun dəstəyi ilə fəaliyyət göstərən Nərimanov rayonundakı autizm sindromlu uşaqlar üçün Reabilitasiya Mərkəzində, həm də "Buta" sarayında uşaqlarla birgə qeyd etdi.

Birinci vitse-prezident Mehriban Əliyeva Reabilitasiya Mərkəzinin nəzdində fəaliyyət göstərən xor kollektivi ilə birgə mahnı ifa etdi. Heydər Əliyev Fondunun uşaqlar üçün ənənəvi olaraq "Buta"da keçirdiyi şənliyə müxtəlif uşaq evlərində və internat məktəblərində tərbiyə alan, xüsusi qayğıya ehtiyacı olan uşaqlar dəvət almışdılar. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva bayram şənliyində iştirak edirdilər.

Şənlikdə çıxış edən Mehriban Əliyeva il əlzində qazanılan uğurlardan danışaraq dedi ki, yeni il, eyni zamanda yeni arzular, yeni hədəflər, yeni imkanlardır. Yeni ildə ölkəmizi yeni qələbələr və yeni nailiyyətlər gözləyir.

Beləliklə, Heydər Əliyev Fondunun həyata keçirdiyi çoxşaxəli fəaliyyətin bir hissəsi olan ənənəvi bayram şənliyi yüzlərlə uşağa böyük sevinc payı bəxş etdi.

Göründüyü kimi, bu gün ictimai-sosial həyatımızın elə bir sahəsi yoxdur ki, Mehriban xanımın nəzər-diqqətindən kənarda qalsın. Onun həyata keçirdiyi təhsil, səhiyyə, mədəniyyət, idman layihələri, qaçqın və məcburi köçkünlərimiz üçün gördüyü işlər, tikinti-abadlıq tədbirləri xalqın fiziki və mənəvi sağlamlığına xidmət edir. Yəni xeyirxahlıq, humanizm, səmimiyyət, insansevərlik, vətəndaş təəssübkeşliyi, Ulu Öndər Heydər Əliyev ideyalarına bağlılıq, milli-mənəvi dəyərlərimizin, mədəniyyətimizin, tariximizin qorunması və təbliği, Azərbaycanın ictimai-siyasi həyatındakı danılmaz xidmətlər və s. bütün bunlar Birinci vitse-prezidentin həyat amalına çevrilib və zaman-zaman bu fəaliyyət daha geniş sahələri əhatə etməkdədir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## 9 fevral Milli Məclisə seçkilər günüdür

## Aleksandr Şapiro SULİMAN: "Azərbaycanda keçiriləcək parlament seçkiləri aparılan islahatların davamıdır"

Azərbaycanda keçiriləcək parlament seçkiləri ölkədə aparılan islahatların davamıdır. Demokratik cəmiyyətlərdə islahatlar davamlı və təxirəsalınmaz şəkildə aparılır. Prezident İlham Əliyevin apardığı bu islahatlar Azərbaycanın beynəlxalq aləmə daim inteqrasiya etdiyini bir daha sübuta yetirdi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında MDB Yəhudi Konqresinin sədri, xoşməramlı səfir, politoloq Aleksandr Şapiro Suliman bildirib.



O qeyd edib ki, Azərbaycanda parlament seçkilərinin keçirilməsi ölkədəki demokratiyanın inkişafından xəbər verir. Bundan başqa, qanunverici orqana seçkilərdə namizədlər arasında gənclərin üstünlük təşkil etməsi yeni parlamentin xalqın istəklərinə tam cavab verəcəyini göstərir. Cəmiyyət hər zaman yeniliklərin tətbiq olunmasını istəyir. Azərbaycanın Milli Məclisi böyük inkişaf yolu keçmiş qanunverici orqandır.

MDB Yəhudi Konqresinin sədri Prezident İlham Əliyevin dövlət və hökumət strukturlarında apardığı islahatların Azərbaycanın hüdudlarından kənarda da böyük rəğbətlə qarşılandığını bildirib. O deyib: "Sevindirici haldır ki, müxtəlif siyasi partiyalar seçkilərə fəal şəkildə qatılıb, öz namizədlərini irəli sürüb. İndiki mərhələdə namizədlər fəal təbliğat-təşviqat kampaniyalarını aparırlar".

Politoloq qeyd edib ki, Azərbaycandan kənarda aparılan müşahidələr bu gün ölkədə azad, ədalətli, Seçki Məcəlləsinin tələblərinə uyğun seçkilərin keçirilməsi üçün imkanların yaradıldığını göstərir. "Hesab edirəm ki, seçki prosesi normal qaydada gedir və uğurla başa çatacaq", - deyə o əlavə edib.

## Şirin Nexamiya MİXAELİ: "Parlament seçkilərindən sonra Azərbaycan daha da güclənəcək"

Əslən Azərbaycandan olan yəhudilər kimi bizim üçün Azərbaycanda baş verən proseslər mühüm əhəmiyyət kəsb edir.

AZƏRTAC xəbər verir ki, bunu Secki-2020.az saytına açıqlamasında "Əslən Azərbaycandan olan Dağ Yəhudilərinin Əlaqələndirmə Mərkəzi" və "İsraildə Azərbaycan evi"nin rəhbəri Şirin Nexamiya Mixaeli deyib.

"Azərbaycan daim güclənən və inkişaf edən ölkədir. Biz ümid edirik ki, parlament seçkilərindən sonra Azərbaycan daha da güclənəcək", - deyən Şirin Nexamiya Mixaeli bildirib ki, Azərbaycanın mövqelərinin daha da möhkəmləndirilməsi, hər zaman olduğu kimi, bütün tərəfdaş və dost dövlətlərlə, o cümlədən İsraillə qarşılıqlı faydalı əməkdaşlığın davam etdirilməsi çox önəmlidir.



O, yeni formalaşacaq parlamentin Azərbaycanın inkişafının daha da sürətlənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

# Maarifləndirici treninqlər Milli Məclisə seçkilərin daha şəffaf və qanunamüvafiq keçirilməsi baxımından önəmlidir



18 saylı Nərimanov-Nizami seçki dairəsi dairə seçki komissiyasında məntəqə seçki komissiyalarının sədrləri və üzvləri üçün maarifləndirici treninqlər təşkil edilib.

Komissiyanın sədri İslam Muradov çıxış edərək fevralın 9-da ölkəmizdə keçiriləcək Milli Məclisə seçkilərə hazırlıqla əlaqədar Mərkəzi Seçki Komissiyasının (MSK) maarifləndirmə proqramı çərçivəsində MSK-nın müvafiq təlimatı və tövsiyəsi əsasında təşkil edilən treninqlər barədə məlumat verib. O qeyd edib ki, bu təlimlər seçkilərin şəffaf və qanunamüvafiq təşkili baxımından önəm daşıyır. Burada seçkilərə hazırlığın gedişi haqqında ətraflı məlumat verilir. Dairədə Milli Məclisə seçkilərə hazırlıq işləri uğurla aparılır. Treninqlərdə seçkiöncəsi, seçki günü və seçkidən sonra görüləcək işlər haqqında məntəqə seçki komissiyalarının üzvləri maarifləndirilir. Məntəqələrdə seçkilərin şəffaf və demokratik keçirilməsi, komissiya üzvlərinin normal fəaliyyəti üçün lazımi şərait yaradılıb, seçici siyahıları dəqiqləşdirilib. Bütün məntəqələr lazımi texniki avadanlıqla və məlumat kitabçaları ilə təchiz edilib. Məntəqələr üzrə seçicilərə bildirişlər paylanılır. Şəffaflığın təmin olunması məqsədilə bəzi məntəqələrdə veb-kameralar quraşdırılıb.

Tədbirdə seçkilərə hazırlıq, onun keçirilməsi, səslərin hesablanması prosesi, onlara hazırlıq və nəticələrin rəsmiləşdirilməsi işində məntəqə seçki komissiyalarının üzvlərinin vəzifələri və fəaliyyətlərinin təşkili məsələlərindən, aşağı seçki komissiyaları tərəfindən seçki hüququnun qorunması mexanizmlərindən də bəhs olunub. Həmçinin iştirakçılara seçki məntəqələrinin səsverməyə hazırlanması barədə məlumat verilib.

Sonra müxtəlif mövzular ətrafında müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Sonda hər bir məntəqə seçki komissiyası üzvünə yaxından tanışlıq və təlimlərdə istifadə etmək məqsədilə MSK tərəfindən hazırlanan səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər sənəd nümunələri təqdim olunub.

* * *

23 saylı Nəsimi-Səbail seçki dairəsi üzrə 4 saylı dairə seçki məntəqəsində yanvarın 28-də seçki komissiyalarının sədrləri və üzvləri üçün maarifləndirici treninqlər keçirilib.

Dairə seçki komissiyasının sədri Ağabala Quliyev treninqlərin fevralın 9-da ölkəmizdə keçiriləcək Milli Məclisə seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının (MSK) maarifləndirmə proqramı çərçivəsində təşkil edildiyini diqqətə çatdırıb.

Qeyd edib ki, üç gün davam edəcək maarifləndirici treninqlər Milli Məclisə seçkilərin şəffaf və qanunauyğun təşkili üçün mühüm əhəmiyyətə malikdir. Treninq iştirakçıları seçkilərə hazırlığın gedişi ilə bağlı aydın və hərtərəfli şəkildə məlumatlandırılır.

Dairədə Milli Məclisə seçkilərə hazırlıq işlərinin yüksək səviyyədə aparıldığını diqqətə çatdıran sədr bildirib ki, treninqlərdə seçkiöncəsi, seçki günü və seçkidən sonra görüləcək işlər haqqında məntəqə seçki komissiyalarının üzvləri mütəmadi maarifləndirilir. Qeyd edib ki, məntəqələrdə seçkilərin şəffaf və demokratik keçirilməsi, komissiya üzvlərinin normal fəaliyyəti üçün lazımi şərait yaradılıb. Dairə seçki komissiyasının ərazisində 31 daimi seçki məntəqəsi fəaliyyət göstərir ki, bunlardan 21-i Nəsimi, 10-u isə Səbail rayonlarına aiddir.

Komissiya üzvlərinin normal fəaliyyət göstərmələri üçün məntəqələrdə hər cür şərait yaradılıb, seçici siyahıları dəqiqləşdirilib. Bütün məntəqələr lazımi texniki avadanlıqla və məlumat kitabçaları ilə təmin edilib. Məntəqələr üzrə seçicilərə bildirişlər paylanılır. Şəffaflığın təmin olunması məqsədilə bəzi məntəqələrdə veb-kameralar quraşdırılıb.

Dairə seçki komissiyasının üzvü Valeh Qasımov tərəfindən treninqlərdə iştirakçılara səsvermə günü məşvərətçi səs hüquqlu üzvlərin, müşahidəçilərin və KİV nümayəndələrinin hüquq və vəzifələri, onlarla iş qaydası, seçki günü məntəqə seçki komissiyalarının rolu və fəaliyyəti barədə məlumat verilib.

Treninqlər zamanı müxtəlif mövzular ətrafında müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb, hər bir məntəqə seçki komissiyasının üzvünə "Seçki günü üçün yaddaş" kitabçası, səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər sənəd nümunələri təqdim edilib.

Qeyd edək ki, 23 saylı Nəsimi-Səbail seçki dairəsi üzrə treninqlər sabah da davam edəcək.

* * *

36 saylı Xətai dördüncü seçki dairəsi dairə seçki komissiyasında məntəqə seçki komissiyalarının sədrləri və aşağı seçki komissiyalarının üzvləri üçün üçgünlük maarifləndirici treninqlər keçirilir.

Yanvarın 28-də, treninqlərin ikinci günündə dairə seçki komissiyasının sədri Tahir Süleymanov fevralın 9-da ölkəmizdə keçiriləcək Milli Məclisə seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının (MSK) maarifləndirmə proqramı çərçivəsində, MSK-nın müvafiq təlimatı və tövsiyəsi əsasında təşkil edilən treninqlərin əhəmiyyətindən danışıb. Bildirib ki, yanvarın 27-dən başlayan treninqlərdə seçkiöncəsi, seçki günü və seçkidən sonra görüləcək işlər haqqında məntəqə seçki komissiyalarının üzvləri məlumatlandırılır. Bu təlimlər Milli Məclisə seçkilərin daha şəffaf və qanunamüvafiq keçirilməsi, həmçinin Seçki Məcəlləsində nəzərdə tutulan məsələlərin öyrənilməsi və yerinə yetirilməsi baxımından böyük önəmə malikdir.



Təlimlərdə aşağı seçki komissiyaları tərəfindən seçki hüququnun qorunması mexanizmlərindan də bəhs olunur. Treninqlər məntəqə seçki komissiyaları sədrlərinin peşəkarlığının yüksəldilməsində, seçkilər sahəsində bilik, bacarıq, vərdişlərin daha da təkmilləşdirilməsində əhəmiyyətli rol oynayır. Dairə üzrə treninqlərə kiçik qruplar şəklində - hər gün iki təlim sessiyasında 35-40 nəfərədək məntəqə seçki komissiyası üzvü cəlb olunub.

İştirakçılar seçki məntəqəsinin açılması, seçkilərə hazırlıq, onun keçirilməsi, səslərin hesablanması prosesi və nəticələrin rəsmiləşdirilməsi işində məntəqə seçki komissiyalarının vəzifələri və fəaliyyətlərinin təşkili məsələləri ilə bağlı məlumatlandırılır. Bununla bağlı aşağı seçki komissiyalarının üzərinə düşən vəzifələr şərh olunur. "İnanırıq ki, səsvermə prosesində heç bir problem olmayacaq və seçkilərin tam ədalətli keçirilməsini təmin edəcəyik. Dairənin əhatə etdiyi məntəqə seçki komissiyalarının sədrləri təcrübələrindən istifadə edərək bu istiqamətdə bacarıqlarını əsirgəməyəcəklər", - deyə dairə seçki komissiyasının sədri vurğulayıb.

Diqqətə çatdırılıb ki, 36 saylı Xətai dördüncü seçki dairəsinin ərazisində 36 daimi seçki məntəqəsi fəaliyyət göstərir və ümumilikdə 46 min 684 seçici var. Əlavə olaraq 4 saylı cəzaçəkmə müəssisəsində və Daxili Qoşunlarda olmaqla iki müvəqqəti məntəqə yaradılıb. Zəruri texniki avadanlıqlarla və məlumat kitabçaları ilə təchiz edilən məntəqələrdən 10-da şəffaflığın təmin olunması məqsədilə veb-kameralar quraşdırılıb. Həmçinin fiziki imkanı məhdud seçicilərin qeydiyyata alındığı üç məntəqədə panduslar düzəldilir. Parlament seçkiləri ilə əlaqədar dairə üzrə 26 nəfər müraciət edib və onlardan ümumilikdə 13 deputatlığa namizəd qeydə alınıb. Onların hər biri üçün bərabər şərait yaradılıb. Təşviqat lövhələrində onların posterləri asılıb. Seçicilərlə görüşlər keçirilməsi üçün MSK tərəfindən yerlər ayrılıb. Onlar hazırda öz təşviqat-təbliğatlarını aparırlar. Dairəyə qayda pozuntuları haqqında məlumat daxil olmayıb. Məntəqələr üzrə seçicilərə bildirişlər paylanılır və fevralın 2-dək bütün seçicilərə çatdırılacaq və onların səsvermədə iştirakı təmin olunacaq. Dairə üzrə hər məntəqədə təxminən 10-dan çox yerli və beynəlxalq müşahidəçi qeydiyyatdan keçib. 36 saylı Xətai dördüncü seçki dairəsi dairə seçki komissiyasının binasında məcburi köçkün rayonlarından olan məntəqə seçki komissiyasının sədrləri də iştirak edirlər. Ümumiyyətlə, bu təlimlər və müzakirələr Milli Məclisə seçkilərin yüksək səviyyədə təşkili üçün yaxşı imkanlar yaradır.

Məşğələni aparan trenerlərdən dairə seçki komissiyasının üzvü Arif Əhmədov iştirakçıları seçki günü məntəqə seçki komissiyalarının rolu və fəaliyyəti, səsvermə günü onların görəcəkləri işlər, seçki məntəqələrinin açılışına hazırlıqlar, səsvermə saatlarında reallaşdırılacaq tədbirlər, əsas seçki hərəkətləri ilə bağlı slaydlarla izahlı şəkildə məlumatlandırıb. Yeni nəsil şəxsiyyət vəsiqələrinin yoxlanılması üçün xüsusi qurğulardan istifadə qaydaları izah edilib.

Bundan başqa, seçici siyahılarının təkmilləşdirilməsi, seçki günü prosedurları və baş verə biləcək müstəsna hallar, səslərin sayılmasına hazırlıq, bülletenlərin təsnifatı, səsvermənin nəticələri barədə yekun protokolun hazırlanması və doldurulması, dairəyə təqdim olunması, səsvermə prosedurlarına dair nəzəri və praktiki tapşırıqlar məşğələlərin gedişində təfsilatlı və əyani formada təqdim olunur.

Təlimdə səsvermə günü məşvərətçi səs hüquqlu üzvlərin, yerli və xarici müşahidəçilərin və KİV nümayəndələrinin hüquq və vəzifələri, onlarla iş qaydası və s. məsələlərə toxunulub. Seçki qanunvericiliyinin məhz bu iki subyektlə necə davranmaqla bağlı müəyyənləşdirdiyi qaydalar barədə məlumat verilib.

Bildirilib ki, seçki günü qanunvericiliyə əsasən səsvermə prosesi ilə bağlı məlumatların ictimaiyyətə çatdırılması üçün yerli və beynəlxalq müşahidəçilərin, KİV-in fəaliyyətinə hər cür şərait yaradılacaq.

Qeyd edək ki, belə treninqlər 33 saylı Xətai birinci, 34 saylı Xətai ikinci, 35 saylı Xətai üçüncü seçki dairələri dairə seçki komissiyalarında da təşkil olunub. Parlament seçkilərinə bir neçə gün qalmış əlavə olaraq müvəqqəti məntəqələrin yaradılması nəzərdə tutulur.

Sonra müxtəlif mövzular ətrafında müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Sonda iştirakçılara MSK tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər sənəd nümunələri təqdim edilib.

* * *

Mərkəzi Seçki Komissiyasının Milli Məclisə seçkilərlə bağlı fəaliyyət planına müvafiq olaraq 27 saylı Sabunçu ikinci dairə seçki komissiyasında məntəqə seçki komissiyasının üzvləri üçün maarifləndirici treninqlər davam etdirilir.



Dairə seçki komissiyasının sədri Nadir Əjdərov dairə üzrə 39 seçki məntəqəsinin fəaliyyət göstərdiyini deyib. Bildirib ki, dairə üzrə seçicilərin sayı 51 min 605 nəfərdir.

Qeyd edib ki, maarifləndirici treninqlər Milli Məclisə seçkilərin şəffaf və qanunauyğun təşkili üçün mühüm əhəmiyyətə malikdir. Treninq iştirakçıları seçkilərə hazırlığın gedişi ilə bağlı hərtərəfli şəkildə məlumatlandırılır.

Dairədə Milli Məclisə seçkilərə hazırlıq işlərinin yüksək səviyyədə aparıldığını diqqətə çatdıran sədr bildirib ki, treninqlərdə seçkiöncəsi, seçki günü və seçkidən sonra görüləcək işlər haqqında məntəqə seçki komissiyalarının üzvləri mütəmadi maarifləndirilir. Məntəqələrdə seçkilərin şəffaf və demokratik keçirilməsi, komissiya üzvlərinin normal fəaliyyəti üçün lazımi şərait yaradılıb.

Bildirilib ki, 27 saylı Sabunçu ikinci seçki dairəsi dairə seçki komissiyasında keçirilən treninqlərdə plana uyğun olaraq 39 məntəqə seçki komissiyasının sədri və komissiya üzvləri iştirak edir. Dairə və məntəqə seçki komissiyaları üzvlərinin peşəkarlıq səviyyəsinin artırılması, seçkilər sahəsində bilik, bacarıq və vərdişlərinin daha da təkmilləşdirilməsi məqsədilə MSK-nın Treninq Qrupu tərəfindən yerlərdə keçirilən treninqlərin cədvəli, eləcə də seçki günü əsas seçki hərəkətləri ilə bağlı slaydlar hazırlanıb. Treninqlərdə trenerlər iştirakçıları səsvermə günü onların görəcəkləri işlərlə, seçki məntəqələrinin açılışına hazırlıqlarla, səsvermə saatlarında reallaşdırılacaq tədbirlərlə bağlı təqdimatlarla və slaydlarla izahlı şəkildə məlumatlandırılır.

Dairə seçki komissiyasının üzvü Telman Sadıqov tərəfindən aparılan treninqlərdə iştirakçılara səsvermə günü məşvərətçi səs hüquqlu üzvlərin, müşahidəçilərin və KİV nümayəndələrinin hüquq və vəzifələri, onlarla iş qaydası, seçki günü məntəqə seçki komissiyalarının rolu və fəaliyyəti barədə məlumat verilib.

Treninqlər zamanı müxtəlif mövzular ətrafında müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb, hər bir məntəqə seçki komissiyasının üzvünə "Seçki günü üçün yaddaş" kitabçası, səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər sənəd nümunələri təqdim edilib.

Məlumat verilib ki, məntəqələr seçki kabinələri, təşviqat lövhələri, məlumat lövhələri, generatorlar, elektrik fənərləri, dövlət bayraqları, dövlət gerbləri, daşınmaz və daşınan seçki qutuları, seçici siyahısı lövhələri, qeydiyyat dəftərləri, təlimat, Seçki Məcəlləsi ilə təmin olunub.

* * *

Parlament seçkiləri ilə əlaqədar maarifləndirici treninqlər 13 saylı Xəzər-Pirallahı seçki dairəsi dairə seçki komissiyasında da təşkil olunub.

Treninqlərdə plana uyğun olaraq, məntəqə seçki komissiyasının sədrləri və üzvləri iştirak edirlər.

Bundan başqa, yaradılan müvəqqəti məntəqələrin, eləcə də seçki dairəsinin ərazisində məskunlaşan məcburi köçkünlərin daxil olduğu məntəqə seçki komissiyalarının sədrləri və üzvləri də treninqlərə cəlb olunublar.

Mərkəzi Seçki Komissiyasının təlimatı və tövsiyəsi əsasında təşkil edilən treninqlərdə dairə seçki komissiyasının sədri Mütəllim Balaqardaşov bildirib ki, 13 saylı Xəzər-Pirallahı seçki dairəsi üzrə 37 seçki məntəqəsi var. Bu məntəqələrdə 44 min 996 seçici qeydə alınıb. Həmçinin bu seçkilərdə 58 gənc ilk dəfə seçkilərdə iştirak edəcək. Mərkəzi Seçki Komissiyasının müvafiq təlimatlarına uyğun olaraq hazırlıq tədbirləri həyata keçirilir, məntəqələrdə bütün lazımi şərait yaradılıb, 10 məntəqədə veb-kamera quraşdırılıb.

Qeyd olunub ki, namizədlərin təşviqatı mərhələsində seçicilərlə açıq və qapalı yerlərdə görüş yerləri müəyyənləşdirilib. Həmçinin hər seçki məntəqəsinin önündə namizədlərin təşviqat materiallarının asılması üçün lövhələr quraşdırılıb.

Məlumat verilib ki, dairə və məntəqə seçki komissiyalarının üzvlərinin peşəkarlıq səviyyəsinin artırılması, onların seçkilər sahəsində bilik, bacarıq və vərdişlərinin daha da təkmilləşdirilməsi məqsədilə Mərkəzi Seçki Komissiyasının treninq qrupu tərəfindən yerlərdə keçiriləcək təlimlərin cədvəli, eləcə də seçki günü əsas seçki hərəkətləri ilə bağlı slaydlar hazırlanıb. Aşağı seçki komissiyaları üçün dördgünlük treninqlərdə iştirakçılar səsvermə günü görəcəkləri işlər, seçki məntəqələrinin açılışına hazırlıqlar, səsvermə saatlarında həyata keçiriləcək tədbirlər ilə bağlı təqdimatlar və slaydlar vasitəsilə ətraflı məlumatlandırılır.

* * *

Fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərə hazırlıqla əlaqədar Sumqayıt şəhərində fəaliyyət göstərən dörd seçki dairəsində aşağı seçki komissiyalarının üzvləri üçün treninqlər keçirilir.

44 saylı Sumqayıt-Xızı seçki dairəsi dairə seçki komissiyasının katibi Təravət Rəsulova bildirib ki, Mərkəzi Seçki Komissiyasının təşkil etdiyi təlim dörd gün müddətində dairənin tərkibində olan 43 seçki məntəqəsinin sədr, katib və komissiya üzvləri üçün təşkil edilib.



Məşğələdə seçki günü məntəqə seçki komissiyaları üzvlərinin vəzifələri, seçki günü prosesləri və müstəsna hallar, səslərin hesablanmasına hazırlıq, seçki bülletenlərinin təsnifatı, səslərin hesablanması və yekun protokolun doldurulması, səsvermə proseslərinə dair praktiki tapşırıqlar ətrafında təlim aparılıb.

İştirakçıların sualları cavablandırılıb.

Dairə seçki komissiyasının katibi bildirib ki, dairə üzrə bugünə 16 namizəd qeydə alınıb. Onlar müxtəlif siyasi partiyaları təmsil edir.

Ümumilikdə şəhər üzrə 300 nəfər müşahidəçi və məşvərətçinin qeydiyyatdan keçdiyini deyən T.Rəsulova dəqiqləşdirilmiş son seçici siyahısına görə, dairə üzrə seçicilərin ümumi sayının 41 min 232 nəfər olduğunu bildirib.

* * *

Fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərə hazırlıqla əlaqədar Zaqatala rayonunda fəaliyyət göstərən 110 və 111 saylı seçki dairələrində aşağı seçki komissiyalarının üzvləri üçün səsvermə günü prosedurları ilə bağlı maarifləndirici treninqlər davam edir.

110 saylı Zaqatala seçki dairəsi dairə seçki komissiyasının sədri Fikrət Mustafayev bildirib ki, yanvarın 27-də başlanan treninqlərə dairənin tərkibində olan 47 seçki məntəqəsinin sədr, katib və komissiya üzvləri, ümumilikdə 282 nəfər cəlb edilib. Treninqlərin ilk iki günündə keçirilən məşğələlərdə 28 seçki məntəqəsi üzrə 168 komissiya üzvü iştirak edib. Məşğələləri Mərkəzi Seçki Komissiyasının (MSK) təşkil etdiyi təlim kursunda iştirak etmiş dairə seçki komissiyasının katibi Harun Əsgərov və baş məsləhətçi Məmmədrəsul Ağayev aparırlar. Təlim prosesində iştirakçılara MSK tərəfindən tərtib edilmiş xüsusi proqram və slaydların köməyi ilə məntəqə seçki komissiyası üzvlərinin rol və vəzifələri, seçki günü prosesləri və müstəsna hallar, səslərin hesablanmasına hazırlıq, seçki bülletenlərinin təsnifatı, səslərin hesablanması və yekun protokolun doldurulması məsələləri barədə metodiki məlumatlar verilib.

Seçki komissiyasının sədri bildirib ki, dairə üzrə 8 nəfər namizəd qeydə alınıb. Onlardan ikisi müxtəlif siyasi partiyaları təmsil edir. Altı nəfərin namizədliyi isə öz təşəbbüsləri ilə irəli sürülüb. Dairə üzrə 487 nəfər yerli müşahidəçi qeydiyyatdan keçib. Dəqiqləşdirilmiş son seçici siyahılarına görə, seçicilərin ümumi sayı 48 min 209 nəfərdir. 111 saylı Zaqatala-Balakən seçki dairəsində isə aşağı seçki komissiyaları üzvləri üçün keçirilən treninqlərə 44 seçki məntəqəsi üzrə 264 nəfər cəlb edilib. Dairə seçki komissiyasının sədri Zöhrab İsmayılov bildirib ki, dairə üzrə Milli Məclisə yeganə mandat uğrunda 8 namizəd mübarizə aparacaq. Onlardan bir nəfəri siyasi partiyanı təmsil edir. Yeddi nəfərin namizədliyi isə öz təşəbbüsləri ilə irəli sürülüb. Dairə üzrə 509 nəfər yerli müşahidəçi qeydiyyatdan keçib.

Treninqlərin ilk iki günündə məşğələlərdə 24 seçki məntəqəsi üzrə 144 nəfər iştirak edib. Məşğələləri seçki dairəsinin baş məsləhətçisi Mübariz Laçınov və aparıcı məsləhətçi Çiçək İsmayılova aparırlar.

Maarifləndirici treninqlər bölgədə fəaliyyət göstərən digər seçki dairələrində də davam edir.

* * *

Yanvarın 28-də 55 saylı Xaçmaz şəhər seçki dairəsində Milli Məclisə seçkilərə hazırlıqla əlaqədar aşağı seçki komissiyaları üzvlərinin maarifləndirilməsi proqramı çərçivəsində təşkil olunan treninqlər davam etdirilib.

Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən keçirilən məşğələlər gün ərzində iki dəfə olmaqla hər treninq sessiyasında 36 nəfərədək məntəqə seçki komissiyası üzvünün iştirakı ilə təşkil edilir.

Fevralın 2-dək davam edəcək treninqlər 55 saylı Xaçmaz şəhər seçki dairəsinin 42 məntəqəsi üzrə ümumilikdə 261 aşağı seçki komissiyası üzvünü əhatə edir. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" əsasında təşkil olunan məşğələlər MSK-nın təlim kurslarında iştirak etmiş trenerlər tərəfindən aparılır.

Əyani vəsaitlərdən istifadə edilməklə keçirilən treninqlərdə məntəqə seçki komissiyalarının üzvləri səsvermə prosesi, seçki prosesində müstəsna hallar, səslərin sayılması və protokolların doldurulması da daxil olmaqla, seçki günü prosedurları barədə ətraflı məlumatlandırılır, praktiki məşğələlər zamanı müxtəlif mövzular ətrafında müzakirələr aparılır və iştirakçıları maraqlandıran suallar cavablandırılır.

Dairə seçki komissiyasının sədri Bəhram Ömərov bildirib ki, treninqlər zamanı hər bir aşağı seçki komissiyası üzvünə Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanmış "Seçki günü üçün yaddaş kitabçası", səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri sənəd nümunələri təqdim olunur.



Seçki komissiyasının sədri qeyd edib ki, dairə üzrə 7 nəfər namizəd qeydə alınıb. Dəqiqləşdirilmiş son seçici siyahılarına görə, seçicilərin ümumi sayı 44 min 382 nəfərdir.

Aşağı seçki komissiyalarının üzvləri üçün treninqlər şimal bölgəsində 51 saylı Qusar, 52 saylı Quba, 53 saylı Quba-Qusar, 54 saylı Şabran-Siyəzən və 56 saylı Xaçmaz kənd seçki dairəsi dairə seçki komissiyalarının hər birində təşkil edilib.

* * *

Fevralın 9-da Milli Məclisə keçiriləcək seçkilərə hazırlıq çərçivəsində aşağı seçki komissiyaları üçün yanvarın 27-dən başlanan maarifləndirici treninq 87 saylı Ağsu-İsmayıllı seçki dairəsində də yüksək səviyyədə aparılır.

DSK-nın inzibati binasının iclas zalında təşkil olunan treninqlər günün birinci və ikinci yarısında keçirilməklə hər gün 12 məntəqəni əhatə edir. Lazımi əyani vasitələrlə təchiz edilən zalda treninqlər DSK-nın sədri, katibi və baş məsləhətçisi tərəfindən keçirilir.

Treninqlərdə komissiya üzvlərinə məntəqə seçki komissiyalarının hüquq və vəzifələri, seçkilərdə aşkarlıq, seçki prosesinin aparılma qaydaları, seçki nəticələrinin rəsmiləşdirilməsi mövzuları Seçki Məcəlləsi əsasında ətraflı izah olunur.

Dairə seçki komissiyasından bildirilib ki, 87 saylı Ağsu-İsmayıllı seçki dairəsinin 63 məntəqəsindən treninqlərə 378 nəfər cəlb ediləcək. İlk iki gündə, yanvarın 27 və 28-də maarifləndirici tədbirdə 140 nəfər komissiya üzvü iştirak edib. Keçirilən hər mövzunun yekununda seçki komissiyaları üzvlərinin sualları ətraflı izah olunur, protokol nümunələri vasitəsilə əyani iş aparılır.

Sonda hər bir iştirakçıya seçki günü üçün yaddaş kitabçası paylanılır.

**AZƏRTAC**

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycan-Ukrayna Hökumətlərarası Komissiyanın növbəti iclası Kiyevdə keçiriləcək

Yanvarın 31-də Kiyevdə Azərbaycan ilə Ukrayna arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Komissiyanın 12-ci iclası keçiriləcək.



İclasda hökumətlərarası komissiyanın həmsədrləri - Azərbaycanın Energetika naziri Pərviz Şahbazov və Ukraynanın İnfrastruktur naziri Vladislav Kriklinin başçılıq etdikləri nümayəndə heyətləri iştirak edəcəklər.

Komissiyanın gündəliyinə iki ölkə arasında ticarət-iqtisadi, enerji, nəqliyyat, infrastruktur, yüksək texnologiyalar, kənd təsərrüfatı, turizm, mədəniyyət və digər sahələrdə əməkdaşlığa dair məsələlər daxil olunub. Gündəlikdəki məsələlərin müzakirəsindən sonra Hökumətlərarası Komissiyanın 12-ci iclasının yekunlarına dair protokol və bir neçə sənədin imzalanması nəzərdə tutulur.

Komissiyanın iclası çərçivəsində yanvarın 29-da Energetika naziri Pərviz Şahbazov, SOCAR-ın prezidenti Rövnəq Abdullayev, eləcə də bir sıra qurumlar və işgüzar dairələrin nümayəndələrindən ibarət heyət Odessada bir sıra infrastruktur obyektlərinə baş çəkəcək. Yanvarın 30-da isə "Energetika sahəsində əməkdaşlıq üzrə Azərbaycan-Ukrayna İşçi Qrupu"nun növbəti iclası və biznes dairələrinin iştirakı ilə "dəyirmi masa" keçirilməsi gözlənilir.

## Azərbaycan sahibkarları Moskvada "PRODEKSPO-2020" sərgisində iştiraka dəvət olunublar

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasından (ASK) AZƏRTAC-a bildirilib ki, fevralın 10-14-də keçiriləcək sərgidə ilin ən böyük "Market şəbəkələrinin alış mərkəzi" təşkil olunacaq. Sərgi çərçivəsində qida məhsullarının alıcısı olan Rusiyanın bütün ərazilərində yerləşən market (hipermarket) şəbəkələrinin və "Horeca" şirkətlərinin nümayəndələri ilə birbaşa görüşlər nəzərdə tutulub.

## Azərbaycanda bu il keçən ildəkindən çox mavi yanacaq hasil ediləcək



**Prezident İlham ƏLİYEV:** "Uzunmüddətli perspektivdə bizim əsas gəlir mənbəyimiz təbii qaz olacaqdır"

**Zəngin ehtiyatlara malik olan "Şahdəniz" yatağı Azərbaycanı dünyaya həm də qaz ixrac edən ölkə kimi tanıtdı. 2006-cı ilin sonlarında Cənubi Qafqaz Boru Kəməri (CQBK) Azərbaycan qazını Gürcüstana çatdırdı. Bundan az sonra qaz həm də Türkiyəyə nəql olunmağa başladı.**

CQBK-ya Gürcüstan-Türkiyə sərhədində əlavə bir xətt də qoşulur və bütövlükdə bu marşrut Bakı-Tbilisi-Ərzurum (BTƏ) kəməri adlanır. Türkiyə mavi yanacağı Azərbaycandan BTƏ və 2018-ci ilin ortalarından TANAP-la (Trans-Anadolu Qaz Boru Kəməri) idxal edir. Qeyd edək ki, ötən il Türkiyəyə 9,1 milyard kubmetrdən çox Azərbaycan qazı ixrac olunub.

2019-cu ildə Azərbaycanın xaricə təbii qaz satışının həcmi 11,7 milyard kubmetr təşkil edib. Bu barədə Energetika Nazirliyinin hesabatında məlumat verilir. Hesabatda, həmçinin bildirilir ki, bu həcm 2018-ci ilin ixrac göstəricilərindən 2,1 milyard kubmetr, yəni 22,2 faiz çoxdur.

Gürcüstan Azərbaycan qazını CQBK və Qazıməmməd-Qazax ixrac kəməri vasitəsilə alır. Keçən il bu ölkəyə verilən qazın 1 milyard 176,4 milyon kubmetri CQBK, qalanı Qazıməmməd-Qazax xətti ilə nəql olunub. Hesabat ilində bu boru kəmərləri qonşu ölkəyə 2,4 milyard kubmetrdən çox qaz ixrac edib. Bu, əvvəlki illə müqayisədə ümumilikdə 200 milyon kubmetrdən çoxdur.

Hazırda "Şahdəniz" yatağından Azərbaycan (SOCAR-a), Gürcüstan (GOGC-yə), Türkiyə (BOTAŞ-a) bazarlarına və çoxsaylı obyektlər üçün BTC şirkətinə qaz çatdırılması davam edir. Xatırladaq ki, "Şahdəniz" layihəsində iştirak payları belədir: BP (operator - 28,8 faiz), TPAO (19 faiz), AzŞD (10 faiz), "Cənub qaz dəhlizi Apstrim" (6,7 faiz), PETRONAS (15,5 faiz), LUKOYL (10 faiz), NİKO (10 faiz).

Yataqda hasilat "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından həyata keçirilir. Bu qurğuların hasilat gücü gündə 56 milyon (ildə 20 milyard) standart kubmetrdir. 2018-ci il iyul ayının sonunda "Şahdəniz Bravo"dan ilk qazın əldə edildiyi vaxtdan bəri hasilat tədricən artır. Bu il də "Şahdəniz"dən hasil edilən qazın xeyli artacağı gözlənilir.

Yaxın gələcəkdə Azərbaycan digər yataqlardan da mavi yanacaq əldə edəcək. Prezident İlham Əliyevin dediyi kimi: "Azərbaycan gələcəkdə qazın ixracından vəsait qazanacaq. Çünki bizim neft yataqlarımız artıq bəllidir. Düzdür, indi xarici şirkətlərlə yeni layihələr işlənilir. Əminəm ki, onlar da imzalanacaq. Artıq imzalanmış layihələrdən də yaxşı nəticələr gözləyirik. Ancaq uzunmüddətli perspektivdə bizim əsas gəlir mənbəyimiz təbii qaz olacaqdır".

Azərbaycanın bütün qaz ehtiyatlarının işə salınmasında keçən ilin sonunda tam istifadəyə verilmiş TANAP kəmərinin əhəmiyyəti böyükdür. Bu baxımdan kəməri yüksək dəyərləndirən dövlət başçısı keçən ilin dekabr ayında yerli jurnalistlərə müsahibəsində demişdir: "TANAP imzalanmasaydı, "Şahdəniz-2" də havada qalacaqdı... Bu, imkan verdi ki, "Şahdəniz" qaz-kondensant yatağı tammiqyaslı işlənsin və beləliklə, orada 1 trilyon kubmetrdən çox olan təbii qaz hasil edilsin, nəql edilsin. Əgər TANAP imzalanmasaydı, bu gün artıq hasilata hazırlaşan "Abşeron" yatağı da qalacaqdı. Heç kim oraya vəsait qoymayacaqdı. "Abşeron" yatağından da biz ən azı 300 milyard kubmetr qaz hasilatı gözləyirik".

Azərbaycan uzun illərdir "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarından çıxarılan səmt qazından da bəhrələnir. Belə ki, AÇG-nin səmt qazının çox hissəsi təmənnasız olaraq Azərbaycan dövlətinə təhvil verilir. 2019-cu ilin ilk üç rübü ərzində AÇG-dən SOCAR-a əsasən Səngəçal terminalı, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 5,7 milyon kubmetrdən çox, ümumilikdə isə 1,6 milyard kubmetr səmt qazı çatdırılıb. Səmt qazı Səngəçaldan SOCAR-a məxsus kəmərlə nəql olunaraq "Azəriqaz" sisteminə ötürülür. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulur.

AÇG yataqlarında "dərin qaz" adlandırılan zəngin ehtiyatlar da mövcuddur. Onların da istismarı nəzərdə tutulur. Azərbaycanın təşəbbüsü və liderliyi ilə yaradılan şaxələndirilmiş ixrac infrastrukturu isə, ümumiyyətlə, istismarda olan və perspektiv yataqlardan alınan qaz ehtiyatlarımızın işə salınmasına və bundan ölkəmizin yüksək gəlirlər əldə etməsinə imkan verəcək.

***Flora SADIQLI, "Azərbaycan"***

## "E-sosial"ın funksionallığı daha da genişlənib

Vətəndaşlara onlarla bağlı sosial məlumatlara real vaxt rejimində çıxış və dövlət sosial xidmətlərindən çevik rejimdə yararlanmaq, öz sosial hüquqlarının təminatına nəzarət imkanı verən "e-sosial" internet portalının funksionallığı daha da genişləndirilib.

Bunun üçün portalın "e-Xidmətlər" bölməsində təqdim edilən xidmətlərin sayı artırılıb. Buraya iş axtarışı ilə bağlı müraciət edilmə xidməti də daxil olunub. İndi hər bir şəxs istənilən vaxt portalda vakansiyalarla tanış ola və əmək bacarıqlarına uyğun iş yerlərinə elektron qaydada göndəriş əldə edə bilir.

Portalda işəgötürənlər üçün də yeni xidmət, yəni yeni və boşalmış iş yerləri (vakansiyalar) barədə məlumatların təqdim edilməsi xidməti də yaradılıb. Həmçinin portala valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə xidmətləri, avtomatlaşdırılmış pensiya və ya müavinət təyinatı barədə vətəndaşlar tərəfindən məlumatın real vaxt rejimində əldə olunması və s. kimi xidmətlər daxil edilib.

Bunlardan savayı, portalda geniş əhatəli e-arayış xidmətləri yaradılıb. Burada 15 növdə e-arayış xidməti (iş yerinə dair, əlilliyə dair, müavinət, təqaüd, pensiya, maddi yardım, birdəfəlik ödəmə, dövlət tərəfindən mənzil, avtomobil, ünvanlı dövlət sosial yardımı ilə təmin olunma və s. barədə e-arayış xidmətləri) təqdim edilir. Yaxın günlərdə bu xidmətlərin sırasının daha da genişləndirilməsi nəzərdə tutulur.

İndiyəcən portalın "Android" əməliyyat sistemi üçün mobil tətbiqi fəaliyyət göstərirdi. Artıq portalın İOS platforması üçün tətbiqi də istifadəyə verilib ki, bu da vətəndaşların e-sosial internet portalından rahat istifadəsinə və onun daha əlçatan olmasına şərait yaradıb.

## Kürdəmirdə "KOB Dostu" fəaliyyətə başlayıb

Kürdəmir rayonunda İqtisadiyyat Nazirliyinin tabeliyindəki Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) "KOB Dostu" fəaliyyətə başlayıb. Bu, ölkə üzrə sayca 21-ci "KOB Dostu"dur.

Bununla əlaqədar KOBİA-nın, yerli icra hakimiyyətinin və sahibkarların iştirakı ilə Kürdəmirdə tədbir keçirilmişdir. Tədbirdə çıxış edən KOBİA idarə heyətinin sədri Orxan Məmmədov agentliyin fəaliyyəti, KOB-lara dəstək məqsədilə həyata keçirilən tədbirlər, eləcə də "KOB Dostu"nun bölgələrdə sahibkarlara göstərdiyi xidmətlər barədə məlumat vermiş, sahibkarları "KOB Dostu" ilə fəal əməkdaşlığa dəvət etmişdir. Qeyd olunmuşdur ki, 2020-ci ildə "KOB Dostu" şəbəkəsinin genişləndirilməsi tədbirləri davam edəcək, ölkənin daha bir neçə şəhər və rayonunda KOB dostları fəaliyyətə başlayacaq.

Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov rayonun sosial-iqtisadi inkişafında özəl sektorun rolu, rayonda sahibkarlıq fəaliyyəti barədə məlumat vermiş, "KOB Dostu"nun sahibkarlar və biznesə yeni başlayanlar üçün faydalı dəstək mexanizmi olacağını vurğulamışdır.

## Ötən il qeyri-neft-qaz sektorunda ÜDM istehsalı 3,5, əhalinin gəlirləri 7,4 faiz artmışdır



*Əvvəli 1-ci səh.*

Mədənçıxarma sektoru üzrə neft hasilatı 3,3 faiz azalmış, əmtəəlik qaz hasilatı 27,7 faiz artmışdır.

Emal sektorunda ağacın emalı və ağacdan məmulatların istehsalı 82,9, hazır metal məmulatlarının istehsalı 80, tütün məmulatlarının istehsalı 80,7, kompüter, elektron və optik məhsulların istehsalı 51,8, içki istehsalı 41,4, toxuculuq sənayesi məhsulları istehsalı 33,2, mebel istehsalı 29,5, maşın və avadanlıqların quraşdırılması, təmiri işləri 27,5, rezin və plastik kütlə məmulatları istehsalı 22, kağız və karton istehsalı 25,5, kimya sənayesi məhsulları istehsalı 25,6, qida məhsulları istehsalı 10,8, əczaçılıq məhsulları istehsalı 20,6, poliqrafiya məhsulları istehsalı 42,2, geyim istehsalı 22,6, tikinti materialları istehsalı 5, maşın və avadanlıqların istehsalı 1 faiz artmışdır. Artım, həmçinin elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, eləcə də su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında qeydə alınmışdır - müvafiq olaraq 3,5 və 6 faiz.

DSK-nın hesabatına əsasən, ötən il ərzində əsas kapitala 17 milyard 184,3 milyon manat vəsait yönəldilmişdir. İstifadə olunmuş ümumi vəsaitin 66,3 faizi məhsul istehsalı və 25,8 faizi xidmət obyektlərinin, 7,9 faizi yaşayış evlərinin tikintisinə sərf edilmişdir. 69,8 faizi daxili sərmayələr olan bu vəsaitlərin 65,4 faizi bilavasitə tikinti-quraşdırma işlərində xərclənmişdir.

Bütün bu vəsaitlər hesabına ötən dövr ərzində ölkə üzrə bir sıra müxtəlif təyinatlı müəssisə və obyektlər, o cümlədən Bakıda Əmlak Məsələləri Dövlət Komitəsinin Əmlak Xidmətləri Məkanı, Mərdəkan-Qala avtomobil yolu, Pirallahı Sənaye Parkında Şpris istehsalı zavodu, həmin rayonda icra hakimiyyətinin inzibati binası, Rayon Gənclər Mərkəzi, ilk DOST mərkəzinin inzibati binası, 140 yerlik məktəbəqədər tədris müəssisəsi, 200 çarpayılıq xəstəxana, Nəqliyyat Agentliyinin "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzi, Sumqayıtda "SOCAR karbamid" və Polietilen zavodları, Beyləqanda Olimpiya İdman Kompleksi, Tarix-Diyarşünaslıq Muzeyi istifadəyə verilmişdir. Bunlarla yanaşı, Kəbirli-Eyvazlılar-Birinci Aşıqlı-Əlinəzərli, Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolları, Qobustan rayonunda "Azərxalça" ASC-nin filialı, Qobustan-Poladlı avtomobil yolu, Əmlak Xidmətləri Məkanı, eləcə də Naxçıvan MR-də 2220 şagirdlik 7 ümumtəhsil məktəb binası, 200 yerlik məktəbəqədər təhsil müəssisəsi, 4 ambulatoriya-poliklinika, Goranboy, Qobustan və Şəmkir rayonlarında 585 çarpayılıq 3 xəstəxana, Şəkidə 624, İsmayıllıda 400, Lerik, Cəlilabad və Quba rayonlarının hər birində 180 şagirdlik 3 ümumtəhsil məktəb binası, Ağdaş Rayon Telekommunikasiya Qovşağında "Şəbəkə" xidmət mərkəzi, Biyan Sənaye Parkı, Qolqəti-Dəhnəxəlil-Qoşaqovaq-Ərəbocağı, Nehrəxəlil-Kotanarx-Cardam-Tofiqi-Şəmsabad və Qəsil-Şordəhnə-Qarağan, Şıxlar-Kükəl-Ərəb-İkinci Aral avtomobil yolları, Şamaxı rayonunda "ASAN həyat" kompleksi, Oğuzda 100 yerlik məktəbəqədər təhsil müəssisəsi və s. obyektlərin açılışı olmuşdur.

Ümumiyyətlə, ötən il ölkə üzrə qeyri-neft-qaz sektorunun inkişafına 11 milyard 694,8 milyon manat vəsait xərclənmiş və həmin vəsaitin 3 milyard 139,2 milyon manatından (ümumi sərmayənin 18,3 faizi) qeyri-neft-qaz sənayesi sektorunda istifadə olunmuşdur. Yeri gəlmişkən qeyd edək ki, bu dövrdə əsas kapitala 5 milyard 188,9 milyon manat xarici kapital da yönəldilmişdir.

Dövlət Statistika Komitəsi ötən ilin yanvar-noyabr ayları üzrə ölkədə muzdla işləyənlərin orta aylıq əməkhaqqı barədə də məlumat açıqlamışdır. Bildirilir ki, Azərbaycanda bu dövr orta aylıq nominal əməkhaqqı ötən ilin eyni dövrü ilə müqayisədə 15,4 faiz artaraq 623,1 manata çatmışdır. Əhalinin ümumi gəlirlərinə gəldikdə, həmin məbləğ keçən il 57 milyard manat olmuşdur ki, bu da nominal ifadədə 2018-ci ildəkindən 7,4 faiz çoxdur.

DSK-nın digər bir məlumatı ölkə üzrə pərakəndə ticarət dövriyyəsi haqqındadır. Hesabata əsasən, ötən il ərzində pərakəndə ticarət şəbəkəsindən əhaliyə satılmış məhsulların dəyəri əvvəlki ilin eyni dövrünün səviyyəsini müqayisəli qiymətlərlə 3,6 faiz üstələyərək 39,3 milyard manatdan çox olmuşdur. Eyni zamanda bu dövrdə əhaliyə 9,6 milyard manatlıqdan çox ödənişli xidmətlər göstərilmişdir ki, bu da əvvəlki ildəkindən 3,1 faiz artıqdır.

Azərbaycanın ötən il xarici ticarət əlaqələrində də müsbət nəticələr qeydə alınmışdır. Hesabata görə, 2019-cu ilin yanvar-noyabr aylarında gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri də nəzərə alınmaqla ölkənin xarici ticarət dövriyyəsinin dəyəri 30 milyard 40,5 milyon dollara çatmışdır. Ticarət dövriyyəsinin 58,8 faizini ixrac, 41,2 faizini idxal məhsulları təşkil etmişdir ki, bu da 5 milyard 271,1 milyon dollarlıq müsbət ticarət saldosu deməkdir.

Xarici ticarətdə digər mühüm fakt ixracda qeyri-neft məhsullarının xüsusi çəkisinin artmasıdır. Hesabatda bildirilir ki, keçən ilin 11 ayı ərzində Azərbaycandan 1 milyard 781,1 milyon dollarlıq qeyri-neft məhsulları ixrac olunmuşdur. Bu isə 2018-ci ilin analoji dövrünə nisbətən faktiki qiymətlərlə 16,3, real ifadədə 10,3 faiz çoxdur.

Bir neçə fakt da nəqliyyat, informasiya və rabitə barədə: hesabatda bildirilir ki, 2019-cu il ərzində ölkənin informasiya və rabitə müəssisələri tərəfindən ümumilikdə 2 milyard 197,9 milyon manatlıq müxtəlif xidmətlər göstərilmiş və həmin xidmətlərin 72,8 faizindən əhali istifadə etmişdir. 2018-ci ilə nisbətən bu xidmətlərin həcmi dəyər ifadəsində 15,9 faiz artmış, əldə edilmiş gəlirlərin 82,4 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. Nəqliyyat sektorunda da göstəricilər müsbətdir. Belə ki, il ərzində ölkə üzrə 235,3 milyon ton yük, 2 milyard 56,5 milyon nəfər sərnişin daşınmışdır. Yük dövriyyəsi üzrə artım 2,2, sərnişin daşınması üzrə 2,7 faiz olmuşdur.

***"Azərbaycan"***

## 5,1 milyondan çox iqtisadi fəal əhalinin 4,9 milyondan çoxu işlə təmin edilmişdir

İlin əvvəlinə olan məluma əsasən, ölkədə 5 milyon 190,1 min nəfər iqtisadi fəal əhali qeydə alınmış və onlardan 4 milyon 938,5 min nəfərini məşğul əhali təşkil etmişdir.

Dövlət Statistika Komitəsinin bu barədə yaydığı xəbərdə daha sonra bildirilir ki, 2019-cu il dekabrın 1-i vəziyyətinə Azərbaycanda muzdla işləyənlərin sayı 1 milyon 644,3 min, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 914,9 min, qeyri-dövlət sektorunda 729,4 min nəfər olmuşdur. İqtisadiyyatın neft-qaz sektorunda 35,1 min, qeyri-neft-qaz sektorunda isə 1 milyon 609,2 min nəfər çalışmışdır.

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 24,2 faizi məhsul istehsalı sahələrində, o cümlədən 7,6 faizi tikintidə, 7,5 faizi emal sənayesində, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda, 2,1 faizi mədənçıxarmada, 1,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı bölüşdürülməsi və təchizatı, 1,8 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında məşğul olmuşlar.

Xidmət sahəsində işləyənlərin 20,4 faizi təhsil, 17,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 8,2 faizi səhiyyə və sosial xidmətlər, 6,9 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 4,2 faizi inzibati və yardımçı xidmətlər, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 3,3 faizi istirahət, əyləncə və incəsənət, hər biri 1,7 faiz olan informasiya və rabitə, maliyyə və sığorta, turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,1 faizi digər sahələrdə xidmətlərin göstərilməsi və 1 faizi daşınmaz əmlakla əlaqədar əməliyyat sahələrində çalışmışlar.

Məlumatda o da bildirilir ki, cari il yanvarın 1-nə olan vəziyyətə görə, məşğulluq xidməti orqanlarında qeydiyyata alınmış işsiz şəxslərin sayı 81,3 min nəfər, işsizlikdən sığorta ödənişinin orta məbləği isə 276,4 manat olmuşdur.

## Keçən il dövlət büdcəsinin gəlirləri 24,1 milyard manatdan çox olmuşdur

Dövlət Statistika Komitəsinin məlumatına görə, keçən ilin yanvar-noyabr aylarında dövlət büdcəsinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,3 faiz artaraq 21 milyard 259,6 milyon manata çatmışdır.

Bu dövrdə büdcədən 20 milyard 175,3 milyon manat (əvvəlki ilin eyni dövründəkindən 2,6 faiz çox) vəsait xərclənmiş, büdcənin icrasında 1 milyard 84,3 milyon manatlıq (ÜDM-in 1,5 faizi qədər) profisit yaranmışdır.

Məlumatda bildirilir ki, sözügedən dövrdə daxilolmaların 21,90 faizi əlavə dəyər, 11,27 faizi hüquqi şəxslərin mənfəət (gəlir) vergiləri, 5,60 faizi xarici iqtisadi fəaliyyətlə bağlı vergilər, 3,90 faizi fiziki şəxslərin gəlir vergisi, 3,84 faizi aksizlər, 1,56 faizi sadələşdirilmiş vergi, 2,22 faizi vergilərin digər növləri, 49,71 faizi isə vergi olmayan gəlirlər hesabına təmin edilmişdir.

Bu dövrdə büdcə vəsaitlərinin 31,47 faizi iqtisadiyyatın inkişafı və tənzimlənməsinin, 13,10 faizi təhsil və səhiyyənin, 10,59 faizi sosial müdafiə və sosial təminat sahələrinin, 44,84 faizi digər sahələrin maliyyələşdirilməsinə xərclənmişdir.

Maliyyə Nazirliyinin təqdim etdiyi operativ məlumatlara əsasən isə, 2019-cu ildə dövlət büdcəsinin gəlirləri 24 milyard 199,6 milyon, xərcləri 24 milyard 404,8 milyon manat olmuş, büdcənin icrasında 205,2 milyon manatlıq (ÜDM-in 0,3 faizi qədər) kəsir yaranmışdır.

## "Azərpambıq ASK" 30,5 min hektarda pambıq əkəcək

"Azərbaycan Sənaye Korporasiyası" ASC-nin nəzdindəki "Azərpambıq ASK" MMC keçən il ölkənin 15 rayonunda 29 min hektarda pambıq əkmişdir.

Bunun 1516 hektarı MMC-nin Biləsuvar rayonunda yerləşən Təcrübə Sınaq Təsərrüfatında, 27 min 484 hektarı isə fermerlərlə bağlanmış müqavilələr əsasında əkilmişdir. Həmin sahələrdən ümumilikdə 80,5 min ton xam pambıq tədarük olunmuşdur. Hər hektardan orta məhsuldarlıq 27,8 sentner təşkil etmişdir. Hazırda Pambıq Emalı zavodlarında xam pambığın emalı prosesi gedir.



2020-ci təsərrüfat ilində isə MMC 30,5 min hektarda pambıq əkməyi, həmin sahələrdən 91,5 min ton məhsul tədarük etməyi və məhsuldarlığı 30 sentnerə yüksəltməyi planlaşdırır.

# Mədəniyyət naziri BMT-nin İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi ilə görüşüb

Yanvarın 28-də Mədəniyyət naziri Əbülfəs Qarayev və BMT-nin İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi Alessandro Frakassetti arasında görüş keçirilib.



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüş zamanı təlimlər, yaradıcı sənayelər və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edilib. Həmçinin BMT-nin İnkişaf Proqramının innovasiyalara dəstək üçün yeni təşəbbüsü olan "Accelerator Lab" layihəsi barəsində söhbət açılıb.

Bildirilib ki, layihənin əsas məqsədi təlimlər vasitəsilə müxtəlif formalarda olan yeni həll yollarını sınaqdan keçirmək və icra müddətini sürətləndirməkdir.

Əbülfəs Qarayev ölkəmizdə yaradıcı mədəniyyət sənayesinin inkişafı sahəsində həyata keçirilən layihələr barədə Alessandro Frakassettiyə məlumat verib.

Azərbaycanda yeni inkişaf mərhələsində olan kreativ mədəniyyət sənayesi sahəsində böyük potensialın olduğunu vurğulayan nazir bu istiqamətdə görülən işlərdə birgə əməkdaşlığın önəmindən bəhs edib.

Sonra 2020-ci ildə həyata keçirilməsi nəzərdə tutulan layihələr barədə fikir mübadiləsi aparılıb.

# Dövlətin və xalqın mənafeyini layiqincə təmin edən müstəqil siyasət

*Əvvəli 1-ci səh.*

Ermənistan hakimiyyətinin daxili həyata hesablanmış addımları da xarici siyasi mərkəzlərlə dəqiqləşdirilir. Bu baxımdan özünün milli maraqlarını müstəqil şəkildə təmin edə bilməyən belə ölkələrin beynəlxalq münasibətlərdəki mövqeyi ayrı-ayrı dövlətlər və təşkilatlar üçün ümumiyyətlə maraqlı deyil. Ona görə də belə dövlətlər beynəlxalq nüfuzdan da məhrumdurlar.

## Söz və nüfuz sahibi

Yuxarda qeyd edilənlərin kontekstindən yanaşaraq deyə bilərik ki, yerləşdiyi regionun lider dövləti olan Azərbaycanın həm də beynəlxalq birlikdəki yerini möhkəmləndirməsi, söz və nüfuz sahibinə çevrilməsi dünya miqyasında qəbul edilən reallıqdır. Bu reallığı təsdiq edən bir çox amilləri sadalamaq mümkündür ki, bunlardan ən başlıcası Azərbaycanın yeritdiyi müstəqil siyasətdir. Bununla bağlı kifayət qədər və beynəlxalq səviyyədə öz təsdiqini və dəstəyini tapmış faktlar ortaya qoymaq mümkündür. Məsələn, bir neçə il əvvəl Azərbaycan BMT Təhlükəsizlik Şurasının üzvü seçilib və bu qurumda iki illik fəaliyyəti dövründə öz missiyasını və vəzifələrini uğurla yerinə yetirib. Respublikamız həm də dünyanın əsas güc mərkəzləri ilə müstəqil siyasət həyata keçirir, həm NATO, həm də KTMT-nin regionda maraqlarının uzlaşmasına hərtərəfli dəstək verir. Ordumuzun bölmələri dünyada sülhyaratma prosesində fəal iştirak edir, səmərəli təklif və təşəbbüslərlə çıxış edir, öz praktiki fəaliyyəti ilə sülhün və təhlükəsizliyin möhkəmləndirilməsinə dəyərli töhfələr verir.

Zəngin təbii resurslara malik olan ölkəmizin enerji siyasəti bütün bölgənin inkişafına və rifahına xidmət edir. Bununla bərabər Azərbaycan regionun və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əsas dövlətlərdən biridir. Digər tərəfdən respublikamız mühüm nəqliyyat-kommunikasiya dəhlizlərinin yaradılması prosesinin əsas təşəbbüskarı və aparıcı iştirakçılarından biridir. Azərbaycanın həyata keçirdiyi siyasət regionda və daha böyük coğrafiyada iqtisadi-ticarət əlaqələrinin inkişaf etdirilməsinə və bütün ölkələrin bu inkişafdan faydalanmasına yönəlib. Rəsmi Bakı regional konfliktlərin, qarşıdurmaların, gərginliyin aradan qaldırılmasında fəal rol oynayır, barışdırıcı missiya həyata keçirir.

Bu mənada hazırkı reallıqlar, Azərbaycanın qlobal miqyasda nail olduğu uğurlar ölkəmizin həyata keçirdiyi siyasətin dünyanın güc mərkəzləri və böyük ölkələri tərəfindən hörmətlə qarşılanması və qəbul edilməsinin əyani təsdiqidir. Bu gün Azərbaycanın istər ABŞ, istər Rusiya ilə sıx tərəfdaşlığa söykənən münasibətləri var. Rəsmi Bakı bu dövlətlərin hər biri ilə qarşılıqlı faydalı əməkdaşlıq və strateji tərəfdaşlıq əlaqələrini daim inkişaf etdirir.

## Etibarlı tərəfdaş, dünya səviyyəli siyasi lider

Azərbaycana olan yüksək ehtiramın başqa bir nümunəsi Prezident İlham Əliyevin həm ABŞ Prezidenti Donald Trampla, həm də Rusiya Prezidenti Vladimir Putinlə qarşılıqlı hörmətə və etimada əsaslanan yüksək səviyyəli əlaqələrinin olmasıdır. Hər iki dövlətin rəhbəri Azərbaycan Prezidentini etibarlı tərəfdaş, dünya səviyyəli siyasi lider kimi qəbul edir, onunla əməkdaşlıq əlaqələrini yüksək qiymətləndirirlər. Təsadüfi deyil ki, həm D.Tramp, həm də V.Putin Prezident İlham Əliyev haqqında daim yüksək rəy bildirib və onun fəaliyyətini və liderliyini təqdir ediblər.

Donald Tramp İlham Əliyevə 28 May - Respublika Günü münasibətilə təbrikində yazır: "Azərbaycanın beynəlxalq təhlükəsizliyə verdiyi töhfələri və "Cənub qaz dəhlizi" təşəbbüsünü irəli sürməklə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində Sizin liderliyinizi dəyərləndirirəm". Rusiya liderinin isə cənab İlham Əliyevə doğum günü ilə bağlı təbrikində deyilir: "Sizin rəhbərliyinizlə Azərbaycan sosial-iqtisadi inkişaf yolunda inamla irəliləyir, beynəlxalq aləmdə mövqelərini möhkəmləndirir. Ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsinə Sizin şəxsi töhfənizi çox yüksək qiymətləndiririk".

Bu təbriklərdə yer alan fikirlərin hər biri Prezident İlham Əliyevin dünyada qəbul olunan siyasətçi olmasının və bunun fonunda Azərbaycanın yüksək beynəlxalq nüfuzunun təsdiqidir.

## Heç kimdən asılı deyilik

Beləliklə, "Strateji baxış: Avrasiya" mövzusunda panel iclasında moderatorun "Avrasiyada indi böyük qüvvələr yerləşib, bir tərəfdən Rusiya, o biri tərəfdən Çin. Azərbaycanın Prezidenti kimi Siz birinci növbədə kimə zəng edərsiniz - Moskvaya, yoxsa Pekinə?" sualına Prezident İlham Əliyevin "Bakıya" cavabı Azərbaycanın müstəqil, heç kimdən asılı olmayan, milli maraqların hər şeydən uca tutulduğu siyasət yürütdüyünü bütün mahiyyəti ilə beynəlxalq ictimaiyyətə çatdırdı.

"Bəli, bizim qonşularımıza münasibətdə siyasətimiz mehribandır, lakin, eyni zamanda, milli maraqlarımız həmişə birinci yerdədir" deyən İlham Əliyevin cavabı Azərbaycanın tamamilə müstəqil siyasət kursu yürütdüyünü, bunun ilk növbədə dövlətin və xalqın maraqları üzərində qurulduğunu göstərir.

Bu gün dünya nizamı, beynəlxalq münasibətlərdəki situasiyalar elədir ki, hər bir dövlət nəinki müstəqil xarici siyasət yeritməyə, hətta öz maraqlarını qorumağa qadir olmalıdır. Azərbaycanın bugünkü inkişaf templəri, dünya birliyindəki yeri və nüfuzu, beynəlxalq münasibətlər sistemindəki mövqeyi ölkəmizin tam müstəqil xarici siyasət yeritdiyini, özünün milli maraqlarını uğurla qoruduğunu təsdiq edir. Bu mənada Prezident İlham Əliyevin Davos səfəri, keçirdiyi görüşlər və açıqlamaları Azərbaycanın həyata keçirdiyi müstəqil siyasəti, eləcə də bu siyasətin mahiyyətini və keyfiyyətini bütün dünyaya nümayiş etdirdi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Səhiyyə naziri Azərbaycanda koronavirusa qarşı profilaktik tədbirlərin gücləndirilməsi ilə bağlı əmr imzalayıb

Azərbaycanın Səhiyyə naziri Oqtay Şirəliyev "Yeni 2019-nCoV koronavirus xəstəliyinə qarşı profilaktik tədbirlərin gücləndirilməsi barədə" əmr imzalayıb.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əmr respublikada yeni koronavirus xəstəliyinə qarşı profilaktik tədbirlərin gücləndirilməsi məqsədilə imzalanıb.

Sənəddə tibb müəssisələrində sanitariya-gigiyena, əksepidemik rejimlərin tələblərinin yerinə yetirilməsi və dezinfeksiya tədbirlərinin həyata keçirilməsi işinin gücləndirilməsi, kəskin respirator virus infeksiyasına şübhəli xəstələrin, xüsusən uşaqların və yaşlı əhalinin hospitalizasiyası üçün xüsusi palataların ayrılması və təchiz olunmasının təmin edilməsi üçün müvafiq tapşırıqlar verilib.

Həmçinin zəruri hallarda tibb müəssisələrində məhdudlaşdırıcı rejimin tətbiq edilməsi, tibb personalının fərdi mühafizə vasitələrindən (maskalardan) istifadəsinin təmin olunması, dərman preparatlarının, dezinfeksiyaedici maddələrin, həmçinin tibb personalı üçün fərdi mühafizə vasitələrinin ehtiyatının yaradılması əmrdə öz əksini tapıb.

Eyni zamanda, əmrdə xəstəlik hallarının ölkəyə gətirilməsinin qarşısının alınması məqsədilə xəstəlik baş vermiş ölkələrdən gələn şəxslər üzərində tibbi müşahidənin aparılmasında Dövlət Gömrük Komitəsinin və Səhiyyə Nazirliyinin mütəxəssislərinin qarşılıqlı fəaliyyətinin təmin olunması da öz əksini tapıb.

Qeyd edək ki, Dünya Səhiyyə Təşkilatının məlumatına əsasən 2019-cu ilin dekabr ayında ilk dəfə olaraq Çinin Yuhan şəhərində naməlum mənşəli pnevmoniyanın törədicisi kimi yeni 2019-nCoV koronavirusu aşkar edilib və onun törətdiyi xəstəliyin qeydiyyatına başlanılıb.

2020-ci ilin yanvar ayında xəstəliyin Çində alovlanması və artıq Tailand, Cənubi Koreya, Yaponiya və digər bir sıra ölkələrdə də yayılması halı davam edir.

**Elm xadimləri**

# Azərbaycanda landşaft planlaşdırılmasının banisi

**Görkəmli elm xadimi, AMEA-nın akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun direktoru, akademik Ramiz Məmmədovun yüksək analitik təfəkkürü, təşkilatçılıq istedadı, yeniliklərə olan hədsiz marağı onun coğrafiya elmi, o cümlədən Xəzər dənizinin tədqiqi sahəsində kifayət qədər sanballı və dəyərli elmi nəticələrin əldə etməsinə imkan vermişdir. Bu cəhətdən R.Məmmədovun landşaft planlaşdırılması istiqamətində apardığı elmi-tədqiqat işlərinin Azərbaycanda coğrafiya elminin nəzəri və praktiki əhəmiyyətinin artmasında rolu böyük olmuşdur.**



Landşaft planlaşdırılması ərazinin ekoloji tarazlığının mühafizə edilməsi əsasında torpaqlardan istifadənin mümkün qədər balanslaşdırılmış, inteqrasiya edilmiş tövsiyələr sisteminin hazırlanmasıdır. Bu çətin və məsuliyyətli tədbirlər sisteminin hazırlanması mövcud coğrafi informasiya sistemləri bazasına əsaslanmaqla insanların sağlam və məhsuldar həyat fəaliyyətinə xidmət etməli və ərazi vahidinin davamlı inkişafının təminatçısı olmalıdır.

Görkəmli alimin landşaft planlaşdırılmasına aid ilk kitabı "Azərbaycanda landşaft planlaşdırılması (ilk təcrübə və tətbiq)" (Tbilisi, 2008) adlanırdı. Kitaba ad təsadüfən seçilməmişdi. Doğurdan da landşaft planlaşdırılması Azərbaycan coğrafiya elmi üçün təbii sistemlərə yanaşmanın daha mütərəqqi və praktiki əhəmiyyət kəsb edən sahəsi olmuşdur. Bu dövrə qədər Sovetlər İttifaqının coğrafiya elmində ətraf mühitin optimallaşdırılmasına aid kifayət qədər sanballı elmi-tədqiqat işləri həyata keçirilmişdi. Lakin optimallaşdırma əsasən insan tərəfindən dəyişdirilmiş və ya yenidən qurulmuş landşaftlar üçün tətbiq edilirdi. Landşaft planlaşdırılması isə əsasən landşaftların təbii əsasına istinad etməklə həyata keçirilirdi. Bu mənada landşaft planlaşdırılması optimallaşmadan nəzəri metodoloji yanaşma baxımından fərqlənirdi. Hər bir landşaft orijinal və təkrarolunmazdır. Bu mənada landşaft planlaşdırılması aparılarkən Azərbaycan landşaftlarının özünəməxsus xüsusiyyətləri, o cümlədən onlar üçün səciyyəvi olan ekoloji və sosial-iqtisadi problemlər də nəzərə alınmalıdır. Akademik Avropada istifadə olunan landşaft planlaşdırılması təcrübəsini Azərbaycan ərazisinə uyğunlaşdıraraq tətbiq etmişdir.

R.Məmmədov landşaft planlaşdırılmasını izah edərkən "nədir" və "nəyi öyrənir" suallarını çox qabarıq şəkildə önə çıxarır və bunlara sanballı və aydın cavablar verir: birinci, ətraf mühitin və komplekslərin müasir vəziyyəti, əhəmiyyəti və həssaslığı haqqında informasiyanın sistemləşdirilməsi və təhlilidir; ikinci, ərazinin geosiyasi vəziyyətinin, torpaqlardan istifadənin perspektivləri və beynəlxalq standartlara uyğun olaraq qoyulmuş tələblərə adaptasiyanın qiymətləndirilməsidir; üçüncü, idarəetmənin ayrı-ayrı səviyyələrində qərarlar qəbul edən təşkilatları və siyasətçiləri birləşdirən vasitədir; dördüncü, proseslərə ictimaiyyətin geniş şəkildə cəlb olunmasını təmin edir və əldə olunmuş məlumatların əlçatanlığına şərait yaradır; beşinci, resurslardan və təbii komplekslərdən istifadənin optimal variantının tapılmasına imkan yaradır; altıncı, investorlara layihələrə qoyulmuş tələbləri nəzərə almağa, onun icrasının məqsədəuyğunluğu barədə düzgün və vaxtında qərar qəbul etməyə imkan yaratmaqla regiona investisiya marağının artmasına kömək edir. Müəllif tərəfindən ümumiləşdirilmiş və sıralanmış cavablar landşaft planlaşdırılmasının mahiyyətini kifayət qədər dəqiqliklə izah edir.

Bir sıra ölkələrdə landşaft planlaşdırılması təbii-iqtisadi qiymətləndirmənin aparılması ilə müəyyən edilmişdir. Yüksək iqtisadi səmərəliyə və ekoloji cəhətdən təhlükəsizliyə çatmaq üçün təbii-təsərrüfat sistemlərinin inkişaf etdirilməsində əsasən texnogen metod və texnologiyaların tətbiqi daha çox vəsait tələb etsə də, lazımi nəticəni əldə etmək çətin olur. Məhz buna görə də bəzi ölkələrdə insanların təsərrüfat fəaliyyətinə, xüsusilə təbiətin qorunmasına əsaslanan landşaft-ekoloji ərazi planlaşdırılmasına geniş yer verilir.

Akademik R.Məmmədov landşaft planlaşdırılmasının nəzəri və metodoloji məsələlərini izah edərkən onun həyata keçirilməsini yeddi mərhələyə ayırır: 1. problemin aydınlaşdırılması; 2. təsvir və qiymətləndirmə; 3. məqsədli konsepsiya; 4. fəaliyyət proqramı; 5. plan; 6. reallaşdırma; 7. nəticələrin qiymətləndirilməsi və dəqiqləşdirilməsi. Bu mərhələlərin həyata keçirilməsi zamanı istifadə olunan üsulların sistemli şəkildə göstərilməsi planlaşdırma iştirakçılarının işini xeyli asanlaşdırır.

Landşaft planlaşdırılmasının məzmunu metodları və mərhələləri zaman-məkan münasibətlərindən asılı olaraq daim dəyişir və yeniləşmə tələb edir. Cəmiyyətlə təbiət arasındakı münasibətlərin strukturu mürəkkəbləşdikcə ekoloji problemlərin həlli də yeni elmi yanaşmalar tələb edir.

Ramiz Məmmədovun landşaft planlaşdırılmasına marağı 2003-cü ildə Qafqaz ölkələrində landşaft planlaşdırılması üzrə mütəxəssislər hazırlamaq məqsədi ilə Almaniya Federal Təbiəti Mühafizə İdarəsinin həyata keçirdiyi silsilə tədbirlərlə bağlı olmuşdur. Bu tədbirlərdə Azərbaycandan da xeyli mütəxəssislər iştirak etmişdir. Lakin onların içindən Ramiz müəllim landşaft planlaşdırılmasının mahiyyətini dərk etmiş və bu yeni istiqamətin Azərbaycan üçün vacib olduğunu qəbul etmişdir. Məhz bunun nəticəsidir ki, hazırda Azərbaycan Milli Elmlər Akademiyasının akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunda eyni adlı şöbə fəaliyyət göstərir.

Almaniya Federal Təbiəti Mühafizə İdarəsi tərəfindən Almaniya (Drezden, 2004) və Cənubi Qafqazda (Tbilisidə) layihə iştirakçıları və həmin ölkələrin Ekologiya nazirlikləri əməkdaşları üçün treninqlər təşkil olunur. Daha sonra tərəflərin hər birinə öz ölkələrində layihəni həyata keçirmək üçün model ərazinin seçilməsi və müvafiq nazirliklə razılaşdırılması təklif olunur.

Yuxarıda yazılanları və Almaniyanın Federal Təbiəti Mühafizə İdarəsinin təklifini nəzərə alaraq Ramiz müəllim Azərbaycanda landşaft planlaşdırılması aparmaq üçün Şirvan Milli Parkı və onun ətraf zonasını seçmişdi. Model ərazinin seçimi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə razılasdırılmışdı.

Landşaft planlaşdırılmasının obyekti kimi Şirvan Milli Parkı və onun ətraf zonasının seçilməsi ərazinin xüsusi təbiəti, heyvanlar aləminin mühafizəsinin zəruriliyi (ceyranlar, köçəri quşlar və s.) və burada təbii və antropogen konfliktlərin mövcudluğu ilə əlaqədardır. Axırıncıları landşaft planlasdırılmasının vasitələrini tətbiq etməklə həll etmək nəzərdə tutulurdu.

Landşaft planlaşdırılması Azərbaycanda birinci dəfə aparıldığından torpaqdan istifadəni və təbiəti mühafizəni nizamlayan bəzi hüquqi məqamları təhlil etmək və onları dövlət, nazirlik və inzibati rayonlar səviyyəsində razılaşdırmaq zərurəti yaranmışdı.

Aparılmış kompleks tədqiqatlar, tərtib olunmuş cədvəllər və xəritələr öz bəhrəsini vermişdi. Bunların əsasında Ramiz Məmmədov Şirvan Milli Parkı üçün inteqrasiya olunmuş tədbirlər sistemi hazırlamışdır.

*Zəngin fauna və flora* növlərinin əhəmiyyətini nəzərə almaqla Şirvan Milli Parkı və onun ətraf ərazilərində aparılmış landşaft planlaşdırılması regionun davamlı və balanslaşdırılmış inkişafını təmin etmək üçün onu *bioregion* kimi elan etməyin münasib olduğu elmi cəhətdən əsaslandırılmışdı.

Bu kontekstdə, ərazinin iqtisadi dirçəlişinə və Milli Parkın səmərəli fəaliyyətinə mənfi təsirləri azaltmaq məqsədilə ən yaxşı konsepsiya və vasitə kimi *biosfer rezervatının* yaradılması irəli sürülmüşdür.

Biosfer rezervatını yaratmaq isə yalnız qorunan təbii komplekslərlə insanların həyat fəaliyyəti sahələri arasında əmələ gəlmiş konfliktləri elmi-praktiki cəhətdən balanslaşdırılmış şəkildə həll etdikdən sonra mümkündür. Bu məsələ də tədqiqatçı alim tərəfindən hərtərəfli öyrənildikdən sonra həll edildi və bu ilk dəfə tərtib olunmuş irimiqyaslı (1:25 000) "Konfliktlər" xəritəsində öz əksini tapmışdır.

Sonralar Ramiz müəllim landşaft planlaşdırılmasına aid tədqiqatlarını Samur-Yalama Milli Parkında davam etdirmişdir. Bildiyimiz kimi, 2015-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə yaradılan Samur-Yalama MP 12500 ha ərazini əhatə etməklə bura yeddi bələdiyyənin ərazisinə aid edilən yaşayış məntəqələri, əkin və otlaq sahələri, o cümlədən çoxsaylı nizamsız yaradılmış turizm obyektləri və s. daxildir. Ona görə də yaradılacaq milli parkın və bələdiyyələrin sərhədləri dəqiq müəyyənləşdirilməli, konfliktli şəraitin həlli və bu milli parkların ərazilərinin yerli əhali tərəfindən əsaslı şəkildə istifadəsi üçün sərhədlərə yenidən baxılmalı və funksional zonalaşdırmada dəyişiklik aparılmalıdır. Bu zaman mövcud hüquqi aktlar və ekoloji yönümlü landşaft planlaşdırmasının imkan verdiyi vasitələri nəzərə almaq zəruri sayılırdı.

İstənilən xüsusi mühafizə olunan ərazi təşkil edildikdə əsas məqsədlər təbiəti mühafizə olmaqla yanaşı, həm də bu ərazinin davamlı inkişafının təşkilidir. Ona görə də milli parklar yaranmazdan əvvəl mövcud təbii və sosial iqtisadi şərait öyrənilib qiymətləndirilməlidir. Daha sonra hər bir təbii komponentin sosial-iqtisadi potensialı araşdırılır və onlar arasında ümumi struktur əlaqələr qurulmaqla xəritələr tərtib edilir. Nəhayət bütün bunların hamısının mövcud və dəyişə biləcək sosial-iqtisadi şəraitlə gələcəkdə necə uzlaşması qiymətləndirilir. Təbii ki, belə araşdırmalar ictimaiyyətin aktiv və interaktiv iştirakı ilə aparılır. Ramiz müəllimin təbirincə desək, landşaft planlaşdırılması təbiətdən istifadəçilərin maraqlarını müəyyən edən və təbiətin mühafizəsi baxımından onları ortaq məxrəcə gətirən, konfliktləri həll edən və razılaşdırılmış fəaliyyət və tədbirlər planı işləyən kommunikativ bir prosesdir. Bu tədqiqatlardan sonra Ramiz müəllimin landşaft planlaşdırılmasına həsr olunmuş ikinci kitabı 2016-cı ildə işıq üzü gördü (Landşaft planlaşdırılması: mahiyyəti və tətbiqi, Bakı, 2016). Kitab bu dəfə də tədqiqatçılar, magistrlər, bakalavrlar və geniş oxucu kütləsi tərəfindən rəğbətlə qarşılandı.

Akademikin tədqiqat sahələrindən biri də Azərbaycan təbiəti üçün aktuallığını yüksək qiymətləndirdiyi və hazırda planetimiz üçün qlobal məsələyə çevrilmiş səhralaşma problemidir. Bu problemə aid Ramiz müəllimin kifayət qədər elmi dəyərə malik həm ölkə, həm də ölkədən xaricdə məqalələri dərc olunmuşdur. O, əsərlərində səhralaşmanın nəzəri-metodoloji problemlərini, dünyada öyrənilmə səviyyəsini məntiqi ardıcıllıqla təhlil etməklə elmi ümumiləşdirmələr aparmışdır. Azərbaycanın təbii-coğrafi xüsusiyyətlərini nəzərə alaraq yerli şəraitə uyğun ilk dəfə səhralaşma meyarlarını və indikatorlarını müəyyən etmişdir. Onun Xəzər dənizinin sahilboyu ərazilər timsalında tərtib etdiyi irimiqyaslı "Səhralaşma dərəcələri" xəritəsi respublikamızda aparılan meliorativ tədbirlər üçün əsas vasitəyə çevrilmişdir.

Alimin son uğurlu tədqiqatlarından biri də ilk dəfə hazırladığı "Azərbaycanın ekoloji risk xəritəsi"dir. Xəritənin hazırlanmasında respublika ərazisində müşahidə edilən əsas təbii-texnogen mənşəli təhlükələri nəzərə alınmaqla, peyk təsvirlərindən və uzunmüddətli çöl tədqiqat materiallarından geniş istifadə edilmişdir. Belə xəritələr Azərbaycanda sürətlə həyata keçirilən tikinti işlərinin, infrastruktur layihələrinin, əhali məskunlaşmasının ekoloji təhlükəsizliyinin təminatı üçün elmi mənbə rolunu oynayır.

Azərbaycan Respublikasının Dövlət mükafatı laureatı akademik Ramiz Məmmədov bu gün də elm adlanan dünyanın sonu görünməyən gözəllikləri arasında tədqiqatlarını həvəslə davam etdirir, Azərbaycan təbiətinin və Xəzər dənizinin öyrənilməsinə əvəzsiz töhfələr verir.

***İbrahim QULİYEV,***
***AMEA-nın birinci vitse-prezidenti, akademik***

# Yasamalda "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib

Yanvarın 28-də IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, yenilənmiş növbəti həyət Yasamal rayonu, Parlament prospekti 2B, 4 və 6A ünvanlarında 600 sakinin yaşadığı üç yaşayış binasını əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.







Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları, şahmat meydançası, velosiped yolu, uşaq meydançası salınıb. Eyni zamanda, ərazidə 2 söhbətgah inşa edilib, oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara yeni dəmir qapılar, yeni liftlər quraşdırılıb. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 30 ədəd ağac və kollar əkilib, 500 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ərazidə müşahidə kameraları quraşdırılıb.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.





# Mədəniyyət





**Xoreoqrafiya**

**Uşaqların ətraf aləmi dərk etməsində, klassik musiqi zövqünün formalaşmasında uşaq balet tamaşalarının rolu danılmazdır. Böyük təkamül və inkişaf yolu keçən balet sənəti olduqca çətin, incə, zərif hərəkətlər, plastika tələb edən bir sənətdir. Baletdə hadisələri musiqinin müşayiəti ilə sözlər deyil, hərəkətlər, jestlər, rəqs elementləri deyir. İdeya, bədii fikir, hadisə rəqs elementləri ilə ifadə edilir.**



## Səhnə yeni uşaq balet əsərlərinin yolunu gözləyir




"Qız qalası" ilə nəinki Azərbaycanda, hətta Orta və Yaxın Şərqdə baletin ilk nümunəsini yaratmış klassik bəstəkar, dirijor, librettoçu Xalq artisti Əfrasiyab Bədəlbəyli həmçinin Azərbaycan musiqisi tarixində uşaqlara həsr edilmiş ilk milli balet əsərinin müəllifidir. Bəstəkar 1939-cu ildə Bakı Xoreoqrafiya Məktəbinin buraxılışı münasibətilə uşaqlar üçün birpərdəli "Tərlan" baletini yazır. Balet Azərbaycanın ilk balerinası Qəmər Almaszadənin quruluşunda xoreoqrafik məktəbin məzunlarının iştirakı ilə 1939-cu ildə tamaşaçılara təqdim olunur. Əsərin süjet xəttini balaca qızın yuxuda onun qorxulu, əcaib varlıqlar tərəfindən təqib olunması təşkil edir. Xeyir və Şər qüvvələri savaşının sonunda həmişə Xeyir qələbə çaldığı kimi, burada da cəsarətli oğlan qalib gələrək qızı xilas edir.

"Qızıl açar" baletinin librettosunu görkəmli Azərbaycan bəstəkarı Ə.Bədəlbəyli yazmış və əsər 1957-ci ildə M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuşdur. Qeyd edək ki, gənc tamaşaçılar üçün nəzərdə tutulmuş bu dördpərdəli balet əsəri Azərbaycan səhnəsində ilk dəfə tamaşaya qoyulmuş birinci uşaq baletidir ki, günümüzə qədər onilliklər boyu opera-balet səhnəsində nümayiş etdirilir.

Azərbaycan musiqisində uşaq melodik səhnə əsərləri ötən əsrin 60-cı illərində öz çiçəklənmə dövrünü yaşayır. Məhz həmin illərdə opera-təmsil, radio-opera, opera-balet, eləcə də uşaq opera-nağılları, uşaq baletləri yazılmışdır. Bu səpkidə əsərlərin yazılması sonrakı illərdə davam etdirilmişdir.

1961-ci ildə bəstəkar İbrahim Məmmədov uşaqlar üçün eyniadlı təmsil əsasında "Tülkü və Alabaş" opera-baletini yazmışdır. Əsərin premyerası 1964-cü ildə keçirilmişdir. Əsərdə vokal və xoreoqrafiya nümunələri bir-birini mahir şəkildə tamamlayır. Bu üçpərdəli opera-baletin librettosunu yazıçı Soltan Dadaşov yazmışdır. "Tülkü və Alabaş" opera-baletində personajların müxtəlif heyvanların surətlərində ifadə edilməsi uşaqlar tərəfindən böyük maraqla qarşılanmışdır.

Növbəti illərdə bu sahənin intensiv inkişafı yeni uşaq balet əsərlərinin meydana çıxmasına zəmin yaratmışdır.

Bəstəkar Əşrəf Abbasovun yaradıcılığının zirvəsində uşaqlar üçün yazdığı "Qaraca qız" baleti durur. Bu, uşaqlar üçün yazılmış ilk irihəcmli səhnə əsəridir. 1965-ci ildə Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulan əsər yazıçı Süleyman Sani Axundovun "Qorxulu nağıllar"ı əsasında yazılmışdır. Baletin libretto müəllifi və tamaşanın ilk dirijoru Ə.Bədəlbəyli olmuşdur.

"Qaraca qız" klassik balet ənənələrinin ən gözəl nümunələrindən biridir. Bəstəkar burada Azərbaycan xalqına məxsus milli keyfiyyətləri musiqi dili ilə məharətlə verə bilmişdisə, baletmeyster Q.Almaszadə də öz növbəsində bir xoreoqraf kimi əsərə yüksək bədii zövqlə quruluş verməyə nail olmuşdur.

"Qaraca qız" baleti 1969-cu ildə Parisdə "Şan Elize" teatrının səhnəsində beynəlxalq rəqs festivalı zamanı nümayiş etdirilmiş və Azərbaycan balet artistləri Paris Rəqs Akademiyasının diplomuna layiq görülmüşlər.

Son illər Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulan Azərbaycan bəstəkarlarının uşaq balet əsərləri sırasında Oqtay Zülfüqarovun "Əlibaba və qirx quldur" baleti özünəməxsus yer tutur. Balet 1990-cı ildə yazılmışdır və librettosu da bəstəkarın özünə məxsusdur.

Sonrakı illərdə Oqtay Zülfüqarov "Məlikməmməd" xalq nağılı əsasında ikipərdəli "Sehrli alma" baletinin də libretto müəllifidir.

Azərbaycan bəstəkarları uşaqlara həsr etdikləri balet əsərlərində milli xoreoqrafiya ilə klassik balet ənənələrinin dramatizmini, obrazların psixoloji səciyyəsini parlaq harmonik ahəng və tembr rəngarəngliyi ilə xalq musiqisinin intonasiyalarından istifadə etməklə klassik balet ənənələrinin ən gözəl nümunələrini yaratmağa nail olmuşlar. Onlar bu səhnə əsərləri ilə yalnız uşaqları deyil, böyükləri də sevindirməyi bacarmışlar.

Bəstəkar Tofiq Bakıxanovun Nizami Gəncəvinin "Xəmsə"si əsasında yazdığı "Xeyir və Şər" adlı birpərdəli, üçeskizli baleti dahi Azərbaycan şairi Nizaminin 850 illiyinə həsr olunmuş müsabiqədə mükafata layiq görülmüşdür. Baletin libretto müəllifi Rəşid Əhmədovdur. Xoreoqrafı isə Xalq artisti Tamilla Şirəliyevadır. Əsərin iştirakçıları olan mərhəmətli Xeyir, qəzəbli Şər, qızlar, quşlar, simvolik güllər baletin dramaturji qütblərini təşkil edir.

Hazırda Akademik Opera və Balet Teatrının səhnəsində uşaqlar üçün Azərbaycan bəstəkarları tərəfindən yazılmış milli balet əsərləri səhnəyə qoyulur. Lakin o əsərlər əsasən 20-25 il və daha öncələr yazılmış musiqi nümunələridir.

Son illər uşaqlara həsr edilmiş irihəcmli musiqi səhnə əsərlərinin yaranması işində bir durğunluq dövrü yaşanır. Uşaqlar üçün yazılmış balet əsərlərinə çox nadir halda rast gəlmək olar. Hətta uşaqlara həsr olunmuş mahnılar da azalıb.

Tanınmış musiqişünaslar müasir dövrdə gənc bəstəkarlar tərəfindən uşaq balet əsərlərinin yazılmamasının bir problem olduğunu dəfələrlə efir məkanlarında dilə gətiriblər. Onlar bunun səbəbini bəstəkarların ya yazılacaq əsərlərinin səhnəyə qoyulmayacağından ehtiyat etmələrində, ya da daha çox mənfəət məqsədilə yaradıcılıqlarında mahnı janrına üstünlük vermələrində görürlər.

Bəstəkarlarımızın bu gün müasir uşaqların həyat və düşüncə tərzinə yaxından bələd olaraq onların zövq və dünyagörüşü ilə səsləşən yeni balet əsərləri ərsəyə gətirmələri uşaqlar üçün də çox sevindirici olar. Şübhəsiz ki, sovet dönəmindəki uşaqlarla müasir uşaqların maraq dairəsi, düşüncə və yaşam tərzi eyni deyil. Əgər 30 il və daha öncələr uşaqlar oyuncaqlarla oynayırdılarsa, bugünkülər daha intellektual, müasir dövrün tələblərindən irəli gələrək, kompüter və internetdən istifadə etmək bacarığına malikdirlər. Onlara sovet dövrünün ədəbiyyat motivləri olan tülkünü çoxbilmiş, dovşanı qorxaq, canavarı adamyeyən, aslanı meşənin şahı və s. kimi qəbul etdirmək mümkün deyil. Çünki onlar artıq hər şeyə realist nöqteyi-nəzərdən yanaşırlar.

Sovet uşağı obrazı bu gün də ədəbiyyatımızda özünü göstərir. Sovet metodu uşaq ədəbiyyatına elə hopub ki, istər şeir və hekayələrdə, istərsə də uşaq melodik səhnə əsərlərində balacaların hamısı düzdanışan, beşalan və qəhrəmandırlar. Problem də orasındadır ki, uşaq ədəbiyyatı bu məngənədən kənara çıxa bilmir - eyni motiv, eyni süjet xətti, eyni üslub bütün uşaq yaradıcılıq sahələrində özünü göstərir. Saxta uşaq obrazları yaratmaq bu gün yazıçıların yaradıcılıq problemi olaraq qalır. Uşaq ədəbiyyatında milli obrazların yaradılmasının Azərbaycan uşaqlarının bir vətəndaş kimi yetişməsində çox böyük rolu ola bilər. Əslində uşaqlar üçün yazmaq böyüklər üçün yazmaqdan daha çətindir. Nədənsə uşaq ədəbiyyatı ciddiyə alınmadığından Azərbaycanda həmişə ikinci dərəcəli hesab edilib.

Hazırda Azərbaycan balet səhnəsində tamaşaya əsasən xarici bəstəkarların uşaq balet əsərləri qoyulur. Düzdür, milli uşaq balet tamaşalarına da quruluş verilir, lakin onların sayı elə də çox deyil.

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində xarici səhnə əsərlərindən tamaşaya qoyulan Pyotr İliç Çaykovskinin "Şelkunçik", Boris Zeydmanın "Qızıl açar", İohann Ştrausun "Düyməcik", Frans Şubertin "Dahi hekayəçi", Sergey Prokofyevin "Zoluşka" və digər balet əsərləri uşaqların zövqünü oxşamaqla onları sevindirir.

Balet mürəkkəb janr olduğu kimi, həm də ecazkar qüvvəyə malikdir. Məhz balet janrında musiqi və hərəkət vasitəsilə emosional təcrübənin ən mürəkkəb çalarlarını çatdırmaq mümkündür. Dövr, nəsil dəyişikliyinə baxmayaraq, bu janrda yazılmış əsərlər heç vaxt öz aktuallığını və təravətini itirmir.

Balet tamaşaçının duyğularına birbaşa təsir edə bilən sintetik sənət növüdür. Musiqi tərbiyəsində və şəxsiyyətin formalaşmasında uşaq baletləri böyük əhəmiyyətə malikdir. Bu əsərlərin köməyi ilə uşaqlara ətraf aləmə məhəbbət, milli musiqiyə maraq, vətənə sevgi, özündən kiçiklərə və böyüklərə hörmət kimi xeyirxah hisslər aşılanır.

***Vəfa GÖVHƏR,***
***Bakı Xoreoqrafiya Akademiyasının mətbuat katibi***

**İncəsənət xadimləri**

## Azərbaycanın ilk qadın teatr rəssamı

### 30 tamaşaya bədii tərtibat verən Bədurə Əfqanlı həm də 8 filmin geyim eskizlərinin müəllifi olub

**Teatrda tamaşanın daha keyfiyyətli alınması, mənasının üzə çıxarılmasında aktyor oyunu qədər vacib digər vasitələr də var ki, onlardan biri geyimlərdir. Çünki geyim ilk növbədə obrazın xarakterini açmaqla yanaşı, həm də əsərin dövrünü özündə əks etdirir. Görkəmli teatrşünas Konstantin Stanislavski məktəbinə görə tamaşa kollektiv əməyin məhsuludur. Bu baxımdan incəsənətin müxtəlif növlərinin sintezindən yaradılır: səhnədə butafor və işıqdan başlamış, mizan, musiqi və geyim vacib faktorlar hesab edilir. Demək, tamaşanın quruluşçu rejissoru kimi, rəssamın da xüsusi rolu var. Bu sənəti sevərək yaşadanların sayı kifayət qədərdir. Adı Azərbaycan peşəkar teatr tarixinə həkk olunanlardan biri də Bədurə xanım Məlik qızı Əfqanlıdır.**






O, Bakıda Məlik Ağamalovun ailəsində dünyaya göz açmışdı. Atası o dövrün tanınmış ziyalılarından sayılırdı. Rəsm çəkməyə həvəsli idi. Boş vaxtlarında övladlarına ədəbiyyatdan və incəsənətdən danışar, onlarda bu sahəyə maraq oyadardı. Bəlkə də elə buna görə böyük qızı Səyyarə heykəltəraşlıqla məşğul olurdu. Bədurə xanım 1929-cu ildə Bakı Pedaqoji Texnikumuna daxil olsa da, rəssamlığa həvəsi onun peşə-sənət yolunu dəyişdi. 1931-ci ildən Rəssamlıq Məktəbinin qrafika şöbəsində təhsil almağa başladı. Teatr rəssamı olmaq qərarına gələn Bədurə Ağamalova diplom işini uğurla başa vurduqdan sonra həyat yoldaşı, məşhur kino və teatr aktyoru Rza Əfqanlı ilə 1933-cü ildə Aşqabada yola düşdü.

1934-1935-ci illərdə Aşqabad Dövlət Azərbaycan Musiqili Dram Teatrında çalışan Bədurə xanım burada Üzeyir bəy Hacıbəylinin "Leyli və Məcnun", Zülfüqar bəy Hacıbəylinin "Aşıq Qərib" operalarına, Hüseyn Cavidin "Şeyx Sənan", Cəfər Cabbarlının "Sevil" və "1905-ci ildə" tamaşalarına bədii tərtibat verdi.

Bir müddətdən sonra "qəribliyin daşını atıb" Vətənə döndülər. 1940-1960-cı illərdə Akademik Milli Dram Teatrında quruluşçu rəssam kimi çalışdı. İlk işi 1940-cı ildə rəssam Əsgər Abbasovla N.Vəzirovun "Müsibəti-Fəxrəddin" tamaşasına verdikləri tərtibat oldu. Bundan sonra S.S.Axundovun "Eşq və intiqam", U.Şekspirin "Otello", Ə.Haqverdiyevin "Dağılan tifaq, "Köhnə dudman", B.Lavrenyovun "Amerikanın səsi", C.Cabbarlının "Od gəlini", N.Hikmətin "Türkiyədə" və s. tamaşalarının tərtibatçı-rəssamı kimi tanındı.

Ötən əsrin əllinci illərində Azərbaycan dram teatrlarında psixoloji realizm aparıcı üslub kimi yetkinləşirdi. 1960-cı illərdə isə lirik-psixoloji üslub kimi önə çıxdı. Bu istiqamətdə ilk addımları uğurlu atılan geyim rəssamı Bədurə Əfqanlı "Ailə namusu", "Məzəli hadisə" tamaşalarına verdiyi poetik ruhlu tərtibatları ilə yadda qaldı.

Azərbaycan Dövlət Rus Dram Teatrının bir sıra tamaşaları, həmçinin opera, rəqs ansamblı və bədii özfəaliyyət kollektivləri üçün geyim eskizləri çəkən Bədurə Əfqanlı habelə C.Cabbarlının "Aydın", "Solğun çiçəklər", M.Təhmasibin "Bahar", "Aslan yatağı", M.İbrahimovun "Məhəbbət", Z.Xəlilin "Qatır Məmməd", S.Vurğunun "İnsan", İ.Əfəndiyevin "İşıqlı yollar", "Bahar suları"... kimi sevilən, uzun illər səhnədən düşməyən tamaşalarında da sənətinin vurğunu olduğunu nümayiş etdirdi.

Azərbaycan Milli Xalça Muzeyində Mədəniyyət Nazirliyinin dəstəyi ilə təşkil edilən geyim mədəniyyətimizin, folklor və milli ənənələrimizin gözəl bilicisi, Xalq rəssamı Bədurə Əfqanlının həyat və yaradıcılığına həsr olunmuş retrospektiv sərginin açılışında və "Bədurə Əfqanlı - teatr, kino, rəqs: geyim və obrazlar" kitabının təqdimat mərasimində mədəniyyət nazirinin müavini, professor Sevda Məmmədəliyeva Azərbaycanın ilk qadın teatr rəssamının təsviri sənət tariximizdə müstəsna xidmətlərindən söz açaraq bildirib ki, rəssam ömrünün 40 ilini teatra və milli rəqs geyimlərinin yaradılmasına, 15 ilini isə kino sənətinə həsr edib: "...O, bu sahələr üzrə olduqca dərin əsərlər yaradıb. Bununla da Bədurə Əfqanlı Azərbaycan teatr, kino və rəqs geyimi ənənələrinin inkişafına əvəzsiz töhfələr verib. Ötən əsrin ikinci yarısında formalaşan rəqs, geyim rəssamlığı da məhz Bədurə Əfqanlının adı ilə bağlıdır..."

Teatr onun həyatının və sənətinin mənasına çevrilsə də, Bədurə Əfqanlının yaradıcılığı Azərbaycan kino salnaməsində də əbədiyaşarlıq pasportu qazandı. 1960-cı ildən "Azərbaycanfilm" kinostudiyasında geyim üzrə rəssam kimi çalışan sənət fədaisi burada "Koroğlu", "Leyli və Məcnun", "Dəli Kür", "Böyük dayaq", "Dədə Qorqud", "O qızı tapın", "Qatır Məmməd" kimi ekran əsərlərinə də geyim eskizləri çəkdi.

Sənətə bağlılıq sənətkarı da yaşadır. Bu mənada Bədurə xanım bəxti gətirən sənətkarlardandır. Belə ki, onun bir çox əsərləri Azərbaycan Dövlət Teatr Muzeyi və A.A.Baxruşin adına Rusiya Mərkəzi Teatr Muzeyində (Moskvada) saxlanılır.

Bu sənətdə qazandığı nailiyyətlərə görə Bədurə Əfqanlı Əməkdar incəsənət xadimi və Xalq rəssamı kimi fəxri adlara layiq görüldü, "Şərəf nişanı" ordeni ilə təltif edildi.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

**Parklar, xiyabanlar**

## "Qoy var olsun yaradan əllər..."

### Atatürk parkı bakılıların sevimli istirahət məkanıdır

**Bakının ildən-ilə, aydan-aya dəyişməsi bura ziyarətə axın-axın gələn əcnəbi turistlərin marağını çəkməkdədir. Tarixlərin və mədəniyyətlərin qovuşduğu paytaxt şəhər onun sakinlərinin də gözlərində birə-min böyüyür, gözəlləşir. Şəhərin panoramasına Yasamal rayonundakı Dağüstü parkdan baxanda inana bilmirsən ki, beş-on ilin içərisində şəhər belə dəyişərmiş.**



Bakını bu gün hər kəs sevir, yalnız son illər göylərin ənginliklərinə boylanan "Alov qüllələri" deyil, həm də yeni salınan, yaşından asılı olmayaraq hər kəsin dinclik tapdığı, istirahət etdiyi park və xiyabanları, səliqə-sahmanlı küçə, ticarət mərkəzləri və "mini-market"ləri ilə də.

Ötən ilin may ayında təmirə bağlanan "Atatürk" parkı da belə məkanlardandır. Xatırladaq ki, parkın təmirdən əvvəlki antisanitar vəziyyəti ətraf ərazilərdə yaşayan vətəndaşları nə qədər narahat edirdisə, yenidənqurma işlərindən sonra sakinlərin sevincinə səbəb oldu.

Bu da paytaxtın Nərimanov rayonu ərazisindəki Atatürk prospektində yerləşən, böyük şəxsiyyət Mustafa Kamal Atatürkün adını daşıyan park. Əsaslı təmir-bərpa işləri paytaxt sakinlərinin istək və arzuları nəzərə alınmaqla, Bakı şəhəri və Nərimanov Rayon İcra hakimiyyətlərinin birgə həyata keçirdiyi layihə əsasında aparılıb.

Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva oktyabrın 1-də parkda əsaslı yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar. Ümumi sahəsi 6 hektardan artıq olan bu istirahət məkanında bütün yaş qruplarına aid vətəndaşlar nəzərə alınaraq xüsusi guşələr, uşaq əyləncə və trenajor qurğuları, həmçinin konsert meydançası yaradılıb.

Burada sakinlərin rahat şəkildə istirahət etmələri üçün velosiped və qaçış zolaqları, eləcə də axşam saatlarında parkın xüsusi zövqlə işıqlandırılması göz qamaşdırmır, əksinə göz oxşayır.

Bu, şəkillərdən görünən mənzərə metronun "Gənclik" stansiyasının yaxınlığında, bir vaxtlar uçuq-sökük "Şuşa" kino-teatrı yerləşən - iki yolun arasında baxımsızlığı ilə yadda qalan, bu gün isə əsl istirahət və əyləncə məkanı olan Atatürk parkıdır. Ona görə deyirlər: "Qoy var olsun yaradan əllər..."

***Məhəmməd NƏRİMANOĞLU,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

**Sənət dünyası**

## 80 yaşın işığı

**Sumqayıt Dövlət Dram Teatrının kollektivi hər zaman burada çalışan və hazırda təqaüddə olan insanlara xüsusi qayğı və diqqətlə yanaşır. Zamanında Azərbaycan teatrına töhfə vermiş sənət adamları premyeralara dəvət olunur, onların doğum günləri, yubileyləri diqqətdən kənarda qalmır.**



Sumqayıt Dövlət Dram Teatrının səhnəsində yetərincə maraqlı, xarakterik obrazlar yaratmış Xalq artisti Svetlana Həkimovanın 80 illik yubileyi qeyd olundu. Teatrın direktoru Əməkdar artist Mübariz Həmidov sənətkarı təbrik etdikdən sonra dövlətin mədəniyyətə göstərdiyi qayğıdan söz açdı.

SDDT-nin direktor müavinləri Əməkdar artist Vidadi Məmmədov, Maya Məmmədova, quruluşçu rejissor, Əməkdar artist Namis Şirməmmədov, Əməkdar artist İlahə Səfərova və digərləri çıxışlarında Svetlana xanımın teatr, televiziya tamaşalarında, şəhərin mədəni-kütləvi tədbirlərində oynadığı obrazlara nəzər saldılar. Xalq artistinin oyun tərzindən, səhnədə çevikliyindən, improvizə qabiliyyətindən danışdılar. Qeyd olundu ki, Svetlana Həkimovanın yaratdığı "Solğun çiçəklər"- Sara, "Qaraca qız"- Gülpəri nənə, "Damokl qılıncı"- Hakimin qızı və bir sıra obrazları bu gün də yaddaşlarda qalır.

Teatrın kollektivini doğması kimi bilən Svetlana Həkimova keçmiş xatirələrindən danışdı. 50 ildən artıq fəaliyyət göstərən teatrın həmişə öndə getməsini arzuladı.

Sonda Sumqayıt Dövlət Dram Teatrının kollektivi adından Svetlana Həkimovaya hədiyyələr təqdim edildi.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# “Azərenerji” rəhbəri ilə TEPSCO-nun direktoru arasında görüş olub

“Azərenerji” ASC-nin rəhbəri Baba Rzayevin başçılıq etdiyi nümayəndə heyəti ilə Yaponiyanın TEPSCO dövlət şirkətinin Mərkəzi Asiya üzrə direktoru Noriaki Taketaninin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş olub.



Bakıda inşa edilən “Şimal-2” layihəsinin meneceri Sato Mitsuyuki və TEPSCO şirkətinin biznesin inkişafı üzrə meneceri Yashushi Shinoginin iştirak etdiyi görüşdə əməkdaşlığın mövcud vəziyyəti və gələcək perspektivləri, o cümlədən yeni generasiya layihələri barədə müzakirələr aparılıb.

Görüşdə “Azərenerji” ilə TEPSCO əməkdaşlığının 25 ilinin tamamlanması xüsusilə qeyd olunub və Baba Rzayev Noriaki Taketaniyə təşəkkürnamə təqdim edib.

***“Azərbaycan”***

# “ASAN xidmət”in fəaliyyətinə dair hesabat təqdim edilib

Dünən Elektron Hökumətin İnkişafı Mərkəzində kütləvi informasiya vasitələrinin nümayəndələri üçün “ASAN xidmət”in 2019-cu ildəki fəaliyyətinə dair hesabat xarakterli mətbuat konfransı keçirilib. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev təqdimatla çıxış edərək Dövlət Agentliyinin tabeliyində olan qurumlar üzrə xidmətlərə, o cümlədən “ASAN xidmət”ə 2019-cu ildə daxil olan müraciətlərin bölgüsünə, ictimai rəyin nəticələrinə dair statistik göstəricilər barədə məlumat verib.



2019-cu il ərzində “Elektron hökumət” quruculuğu, dövlət xidmətlərinin rəqəmsallaşdırılması, innovasiyaların tətbiqi və startaplara dəstək istiqamətində həyata keçirilən tədbirlər də diqqətə çatdırılıb. Dövlət Agentliyinin sədri, eyni zamanda müvafiq dövr ərzində icra olunmuş müxtəlif sosial layihələr və beynəlxalq əməkdaşlıq, “ABAD” və ASAN könüllülərinin fəaliyyəti sahəsində görülmüş işlər barədə məlumat verib.

Tədbirdə, həmçinin fəaliyyətə başlayacaq yeni mərkəzlərə, elektron xidmətlərə, idarəetmə sistemlərinin təkmilləşdirilməsinə dair gələcək planlar barədə danışılıb.

Sonda kütləvi informasiya vasitələrinin nümayəndələrinin sualları cavablandırılıb.

***E.CƏFƏROV,***
***“Azərbaycan”***

# Gənc əsgərlərin andiçmə mərasimi keçirilib











25 yanvar 2020-ci il tarixdə Dövlət Sərhəd Xidmətinin Göytəpə şəhərində yerləşən hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilmişdir.

Gənc əsgərlər təntənəli şəkildə hərbi anda gətirildikdən sonra tədbir iştirakçılarına Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin təbrik telefonoqramı çatdırılmışdır.

Mərasimdə Ulu Öndər Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inkişafı istiqamətindəki xidmətlərindən danışılıb. Ulu Öndərin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ölkəmizin sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə qaldırılması xüsusi qeyd edilmişdir. Çıxış edənlər vətənə, dövlətə sədaqət andı içərək müqəddəs sərhədlərimizi şərəflə qorumaq məsuliyyətini öz üzərlərinə götürən gənc əsgərlərin hərbi anda daim sadiq qalacaqlarına əminliklərini bildirərək onlara müvəffəqiyyətlər arzulamışlar.



Tədbirdə Dövlət Sərhəd Xidmətinin şəxsi heyətinin ölkəmizin ərazi bütövlüyünün, işğal altında olan torpaqlarımızda Azərbaycanın suveren hüquqlarının bərpasına və həmin ərazilərdə dövlət sərhədlərinin mühafizəsinin Azərbaycanın dövlət bayrağı altında təşkil olunacağına əminlik ifadə edilmişdir. Eyni zamanda Ermənistan ilə dövlət sərhədinin Qazax və Ağstafa rayonları ərazisindən keçən hissəsinin mühafizəsinin Dövlət Sərhəd Xidmətinə həvalə olunması şərəf və qürur olmaqla yanaşı, Ali Baş Komandanın Azərbaycan sərhədçisinə olan etimad və etibarının ifadəsi kimi dəyərləndirilmişdir.

Çıxış edən valideynlər yaradılmış şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmiş, övladlarını təbrik edərək vətən sərhədlərinin keşiyində ayıq-sayıq dayanmağı tövsiyə etmişlər.

Mərasim gənc əsgərlərin təntənəli marşla tribuna önündən keçidi ilə başa çatmışdır.

***“Azərbaycan”***

# Qoşunların yeni tədris dövrünə hazırlığının yoxlanılması davam edir

Qoşunların yeni tədris dövrünə hazırlığının yoxlanılması məqsədilə keçirilən kompleks tədbirlər çərçivəsində hərbi hissələrin zirehli, avtomobil və xüsusi texnikalarının vəziyyəti yoxlanılır və qiymətləndirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hərbi texnikanın vəziyyətinin qiymətləndirilməsi onun əsas sistem və aqreqatlarının fəaliyyətinin yoxlanılması ilə həyata keçirilir.

Kompleks tədbirlər davam edir.

# “Azərişıq” ASC-də daha bir yenilik:
## Rəqəmsal texnologiyalar üzərindən interaktiv müsahibə





Kadr seçimində şəffaflığın təmin edilməsi, innovativ və texnoloji metodlardan istifadə edərək daha peşəkar kadrların işə cəlb olunması istiqamətində uğurlu fəaliyyət xətti seçən “Azərişıq” ASC-də interaktiv müsahibələr davam edir.

Regionlar üzrə səhmdar cəmiyyətə işə qəbul üçün müraciətlərin elektronlaşdırılması və rəqəmsal texnologiyalar üzərindən təşkil edilməsinin məntiqi davamı olaraq keçirilən müsahibələr ilk dəfə olaraq teleprezent sistemi ilə keçirilir. Həftədə bir dəfə həyata keçirilən bu yenilik birbaşa olaraq kadr siyasətində şəffaflıq və əlçatanlığın təmin edilməsinə xidmət edir.

Azərbaycanın istənilən bölgəsində iş üçün müraciət edən gənclər paytaxta gəlmədən, yaşadıqları şəhər və rayonlarda yerləşən Avtomatik İdarəetmə Mərkəzlərində birbaşa bağlantı ilə mərkəzə qoşulur, müsahibədə iştirak edirlər. Bununla da onlar yaşadıqları ərazini tərk etmir, həm zaman itkisinə yol vermir, həm də yol üçün əlavə xərc çəkmiş olmurlar. Bu operativliyin və işə qəbulda şəffaflığın təmin edilməsi üçün uğurlu vasitə hesab olunur.

Bu ildən tətbiq edilən teleprezent sistemi ilə müsahibə artıq 3 dəfə keçirilib. Xatırladaq ki, ötən ildən başlayaraq “Azərişıq” ASC-də işlə təmin olunmaq üçün müraciət elektron qaydada aparılır. İşə Qəbul Komissiyası tərəfindən mütəmadi təşkil edilən müsahibələrdə və Tədris Mərkəzi kurslarında müvəffəqiyyət qazanan namizədlər ASC-nin Kadr Ehtiyat Bankına daxil edilir, elektron növbə sistemi ilə işlə təmin edilirlər.

Qeyd edək ki, “Azərişıq” ASC-nin hazırda Bakı, Gəncə, Mingəçevir, Sumqayıt, İmişli şəhərlərində Tədris mərkəzləri fəaliyyət göstərir. Gələcəkdə Tədris mərkəzlərinin digər şəhər və rayonlarda da açılması planlaşdırılır. Mərkəzlərdə müəllim və professor heyəti tərəfindən ASC əməkdaşlarına ən son texnoloji yeniliklərin imkanlarından yararlanaraq yeni praktik biliklər tədris olunur.

***“Azərbaycan”***


# Azərbaycan Respublikasının Mərkəzi Bankı
## *tender elan edir*

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən poçt (kuryer) xidmətlərinin cəlb edilməsi ilə bağlı elan edilmiş açıq tender Tender komissiyasının 28 yanvar 2019-cu il tarixli qərarı ilə “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə uyğun olaraq baş tutmamış hesab edilmişdir.

“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yenidən poçt (kuryer) xidmətlərinin cəlb edilməsinə dair açıq tender üsulu ilə elektron satınalma keçirilir.

Tender proseduru **27 fevral 2020-ci il saat 15:00-da** Dövlət satınalmalarının vahid internet Portalında *(https://etender.gov.az/)* (bundan sonra - Portal) keçiriləcəkdir.

Maraqlanan şəxslər tenderdə iştirak etmək üçün Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına 100 (bir yüz) manat məbləğində iştirak haqqı ödəməklə Portal vasitəsilə əsas şərtlər toplusunu əldə edə bilərlər:

Azərbaycan Respublikasının Mərkəzi Bankı

**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesab: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BİK NABZAZ2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar Portal vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, nizamnaməsi, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarışı, bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *Azərbaycan dilində tender təklifi (tender təklifi 17 aprel 2020-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının müvafiq sahədə ən azı 3 (üç) il, o cümlədən dövlət qurumları ilə ən azı 1 (bir) il iş təcrübəsi olması barədə məlumat;*
- *tenderin əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

İddiaçılar tender təklifini və tender təklifinin bank təminatını **27 fevral 2020-ci il saat 14:00-a** qədər, digər tələb olunan sənədləri isə ən geci **18 fevral 2020-ci il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim edə bilərlər.

Satınalmaya başlanma vaxtı: satınalma müqaviləsi imzalandığı gündən.

Xidmətin göstərilməsi müddəti: satınalma müqaviləsi imzalandığı gündən 1 (bir) il müddətində.

Qiymətləndirmə meyarları: maliyyə amili və iş təcrübəsi.

Tender prosedurunun hər bir iştirakçısı onun təklifinin açılmasını və qiymətləndirilməsini Portal vasitəsilə müşahidə edə bilər.

***Tender komissiyası***


# Xəzər dənizində batan balıqçı gəmisinin dörd nəfərlik heyəti xilas edilib

Dövlət Sərhəd Xidmətinin (DSX) Sahil Mühafizəsi Xəzər dənizinə çıxan üzmə vasitələrinə nəzarətin təşkili və xilasetmə tədbirlərinin həyata keçirilməsini davam etdirir. DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, yanvarın 25-də saat 21:00 radələrində Xəzər dənizinin cənub istiqamətində Salyan reydində sahildən 3,5 mil (6 km) məsafədə olan “İdris” balıqçı gəmisindən gəmidə dəliyin əmələ gəlməsi və batma təhlükəsi ilə üzləşməsi və heyət üzvlərinin xilas edilməsinə ehtiyacın olması ilə bağlı Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin yaxınlıqdakı sahil nəzarəti bölməsinə məlumat daxil olub.

Sahil nəzarəti bölməsi dərhal operativ tədbirlər həyata keçirərək xilasetmə üçün həmin istiqamətə kiçikhəcmli üzmə vasitəsi göndərib. Gəmidə dəliyin böyük olması səbəbindən dolan suyun qarşısını almaq mümkün olmayıb və dörd balıqçı saat 22:15 radələrində xilas edilib. Saat 23:00 radələrində gəminin batması müşahidə olunub.

Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin hərbi qulluqçuları tərəfindən xilas edilmiş şəxslərin Neftçala rayon sakinləri gəmi kapitanı 1958-ci il təvəllüdlü Talıbov Ələsgər Məmmədəli oğlu, mexanik 1963-cü il təvəllüdlü Mikayılov Əlimədət Ağasadiq oğlu, matros 1962-ci il təvəllüdlü Əhmədov Ələddin Tapdıq oğlu, matros 1982-ci il təvəllüdlü Novruzov Əsgər Məhərrəm oğlu olmaları müəyyənləşdirilib.

***“Azərbaycan”***

# Ermənistanda hakimiyyət çaxnaşması böyüyür
## Paşinyan keçmiş iqtidar təmsilçilərinə qarşı həbs dalğasını davam etdirir

***Əvvəli 1-ci səh.***

Tovmasyan bildirib ki, onu iki-üç dəfə dindirməyə çağırıblar: “Hakimiyyətin istəyi ən qısa müddətdə Konstitusiya Məhkəməsinin sədri kimi məndən qurtulmaqdır. Bu hərəkətlər davam edəcək və yeni cinayət hadisələri üçün əsas tapacaqlar. Bu günlər Ermənistanda baş verənlər, Konstitusiya Məhkəməsi ətrafında yaşanan problemlər mövcud hakimiyyətin əsas vəzifəsinin məndən qurtulmaq olduğunu sübut edir. Bütün bunlar çox kobud, açıq şəkildə edilir və bütün ictimaiyyət, beynəlxalq aləm bunu görür”.

Tovmasyan jurnalistlərin ətrafında cərəyan edən proseslərin yalnız on faizini gördüklərini vurğulayıb. Bildirib ki, milli təhlükəsizlik xidmətinin sabiq direktoru bütün bunları görürdü və onun zabit şərəfi səssiz qalmasına imkan vermədi. Baş verənlər siyasi mahiyyət daşıyır və bunlar ölkənin maraqlarına ziddir. Telefon danışıqlarına qulaq asılması məsələsinə də toxunan məhkəmə sədri qeyd edib ki, dostlarıma dəfələrlə demişəm ki, danışanda və yazanda dinlənildiklərinə uyğun hərəkət etsinlər. Heç bir qərar gözləməyin, həyatımın rejimi dəyişməyib, telefon nömrələrim eynidir, özüm də rahat yaşayıram.

Ermənistan hakimiyyətinin belə addımlar atmaqla Tovmasyanı ləkələməyə və bununla da onun istefasına nail olmağa çalışdığı açıq-aydın görünür. Erməni politoloq Narek Samsonyan bildirib ki, Artur Vanetsyan Paşinyanın əsas rəqibinə çevrilib: “Əslində, burada Paşinyan açıq şəkildə əlcəyi Vanetsyana atdı. Və diqqət edək, bu son zamanlarda onun (Paşinyanın - red.) əsas düşmən “titul”u hakim dairələr tərəfindən məhz Vanetsyana verildi. Vanetsyan Paşinyan hakimiyyətinə son qoya biləcək siyasi informasiya daşıyıcısıdır. Bu gün Paşinyan Vanetsyanı təhdid etdi. Bu o demək idi ki, “deyirsən de, sonra nə olacağını görəcəksən”.

Yerevan Ağsaqqallar Şurasındakı “Svet” fraksiyasının rəhbəri David Xajakyan isə bildirib ki, Paşinyan keçmiş müttəfiqləri arasında düşmənçilik toxumu səpmək üzrə bənzərsiz bir istedada sahibdir. Hakimiyyətdə olduğu ötən müddət ərzində Paşinyan ritorikasında hələ də pis fikirlərini düşmənlərdən, düşmənlərini isə rəqiblərdən ayırd edə bilməyib: “Bir vaxtlar mən onun ortaya atdığı “ağ-qara” oyununu, sadəcə olaraq, Nikolun səs toplamağa hesablanmış hiylələrindən biri kimi başa düşürdüm. Amma yox, sən demə, bunlar Paşinyanın gördüyü rəng spektrlərindən biriymiş. O, keçmiş müttəfiqləri arasında düşmənçilik səpmək üzrə özünəməxsus bir istedada sahibdir”.

Ermənistanın hüquq ekspertləri və vətəndaş cəmiyyətinin nümayəndələri də qeyd edirlər ki, məişət zorakılığı hallarının artması əhalinin maddi vəziyyətinin ağır olması ilə sıx əlaqəlidir. Buna paralel olaraq bütün sahələr üzrə getdikcə yüksələn qiymət artımları əhalinin sosial vəziyyətini daha da çətinləşdirib. Yerli mətbuat yazır ki, Ermənistanda dizel yanacağının qiyməti yenə də artırılacaq. Bu məlumatdan sonra ermənilər indidən dizel yanacağı alıb saxlamağa başlayıblar: “Dizel yanacağının qiymətinin hər litr üçün yenə 50 dram artacağı ehtimal edilir. Dizel yanacağının qiyməti artacağı təqdirdə fermerlər təxminən 8 min dram əlavə xərc sərf etmək məcburiyyətində qalacaqlar”.

Ermənistanda vəziyyəti ağırlaşdıran digər bir cəhət isə işsizlik səviyyəsinin durmadan yüksəlməsidir. Araşdırmalara görə, əmək qabiliyyəti olan əhalinin yarıya qədəri hazırda işsizdir. Qlobal böhran nəticəsində isə dövlət və özəl sektorda kütləvi ixtisarlar aparılacağı bildirilir. Böhran nəticəsində kütləvi şəkildə işdən çıxarılma vəziyyəti daha da ağırlaşdıracaq. O da vurğulanır ki, tədbir görülməsə, anarxiya artacaq, Ermənistanda cinayətkarlığın baş alıb getməsi dövrü başlanacaq.

Bütün bunlar qarşıdakı dövr ərzində Ermənistanı heç də sakit günlərin gözləmədiyini deməyə əsas verir.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

Təkrar

# Azərbaycan Respublikası Baş Prokurorluğu 2020-ci ildə inventarların, mal-materialların, avadanlıqların, iş və xidmətlərin satın alınması ilə əlaqədar

## *açıq tender elan edir*

**Tender 7 (yeddi) LOT üzrə keçirilir:**

Lot - 1. Dəftərxana ləvazimatlarının satın alınması.
Lot - 2. Təsərrüfat mallarının satın alınması.
Lot - 3. Ofis və kabinet mebellərinin satın alınması.
Lot - 4. Avadanlıqların satın alınması.
Lot - 5. Tikinti materiallarının satın alınması.
Lot - 6. Katriclərin satın alınması.
Lot - 7. Geyim formasının satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq öz yazılı tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlanmış zərfdə təqdim etsinlər.Malların təchiz olunma müddəti - il ərzində.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: səmərəli tender təklifinə, yüksək keyfiyyətə, müqavilənin vaxtında yerinə yetirilməsinə, iddiaçının maliyyə vəziyyətinə.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər LOT üzrə 500 AZN məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Nigar Rəfibəyli küçəsi,7 ünvanından (Əlaqələndirici şəxs: Mikayılov İmran Mirzəağa oğlu, telefon: 492-93-79) ala bilərlər.

**Təşkilat: Azərbaycan Respublikası Baş Prokurorluğu**
**VÖEN: 1700354471**
**H/h:AZ11CTRE00000000000003118570 VÖEN: 1700986181**
**Bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**Kodu: 210005; VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T: CTREAZ22**
**Büdcə təsnifatının kodu: 142340**
**Büdcə səviyyəsinin kodu: 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair öhdəliklərin yerinə yetirilməsi, vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqandan arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son üç ildəki müvafiq işlər üzrə fəaliyyəti haqqında müəssisə tərəfindən təsdiq olunmuş arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 26 fevral 2020-ci il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 06 mart 2020-ci il saat 17:00-a qədər Azərbaycan Respublikasının Baş Prokurorluğuna (ünvan: Bakı şəhəri, Nigar Rəfibəyli küçəsi,7) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 10 mart 2020-ci il saat 11:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

Təkrar

# "Azərişıq" ASC "ASAN xidmət" mərkəzlərinin "Azərişıq" ASC-yə aid olan layihələrə tələb olunan müxtəlif tipli dayaqların satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT 1** - "ASAN xidmət" mərkəzlərinin "Azərişıq" ASC-yə aid olan layihələrə tələb olunan müxtəlif tipli dayaqların satın alınması - 400 manat

**"Azərişıq" ASC**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Zaur Abdullayev (telefon: 440-39-93 daxili (23-32))

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (https://etender.gov.az/).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 17 fevral 2020-ci il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 25 fevral 2020-ci il saat 16:00-a qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 26 fevral 2020-ci il saat 16:00-da Ələsgər Qayıbov küç. 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

Bank of Baku
SİZƏ YAXIN BANKÇILIQ

## "BANK OF BAKU" ASC-nin səhmdarlarının nəzərinə

**16 mart 2020-ci il saat 15:00-da** "Bank of Baku" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının Ümumi Yığıncağının növbədənkənar iclası keçiriləcək.

**Ünvan:** Bankın Baş İdarəsi, Bakı AZ1069, Atatürk prospekti, 42. **Telefon:** 447-00-55.

İclasın gündəliyi bildirişlə birgə səhmdarlara göndərilib. Gündəlik üzrə materialları göstərilən ünvandan əldə etmək olar.

## К сведению акционеров ОАО "BANK OF BAKU"

**16 марта 2020-го года в 15:00** состоится внеочередное заседание Общего Собрания Акционеров Открытого Акционерного Общества "Bank of Baku".

**Адрес:** Головной Офис Банка, Баку A31069, проспект Ататюрка, 42. **Телефон:** 447-00-55.

Повестка заседания и уведомление высланы акционерам. Материалы по повестке можно получить по указанному адресу.

## B İ L D İ R İ Ş

"Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" publik hüquqi şəxsi (DOST Agentliyi) **avadanlıqların** satın alınması məqsədilə elan etdiyi açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsini həyata keçirmiş və müsabiqənin qalibi **"LOTUS CO" QSC** müəyyən edilmişdir.

Qalib təşkilatla satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti, Binəqədi rayon Məşğulluq Mərkəzi

## mərkəzin inzibati binasının cari təmir işlərinin kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (012) 563-12-75 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 04 fevral 2020-ci il saat 17:00-dək qəbul olunur.

Ünvan: Bakı şəhəri, Binəqədi rayonu, Səttar Bəhlulzadə küç.,44

***Tender komissiyası***

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 21 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Kəngərli, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi "Azərenerji" ASC-nin prezidenti Baba Rzayevə anası

**XANIM RZAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Məzahir Pənahov ailə üzvləri ilə birlikdə akademik Əhliman Əmiraslanov və ailəsinə əzizləri

**NADİR KƏRİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi "Azərenerji" ASC-nin prezidenti Baba Rzayevə anası

**XANIM RZAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov və komitənin üzvləri Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanova əzizi

**NADİR KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanova əzizi

**NADİR KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Əflatun Amaşova əzizi

**QASIM QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov "Azərenerji" ASC-nin prezidenti Baba Rzayevə anası

**XANIM RZAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi akademik Əhliman Əmiraslanova əzizi

**NADİR KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi "Azərenerji" ASC-nin prezidenti Baba Rzayevə anası

**XANIM RZAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi "Azərenerji" ASC-nin prezidenti Baba Rzayevə anası

**XANIM RZAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Tibb Universitetinin Onkoloji Klinikasının direktoru, Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanova əzizi

**NADİR KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfova qardaşı

**FƏXRƏDDİN NƏCƏFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin kollektivi "Azərenerji" ASC-nin prezidenti Baba Rzayevə anası

**XANIM RZAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin kollektivi iş yoldaşları Ziyəddin Allahverdiyevə bacısı

**XATİRƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Şəmkir Su Elektrik Stansiyaları Silsiləsi" MMC-nin direktoru Misir Yusifov və MMC-nin kollektivi "Azərenerji" ASC-nin prezidenti Baba Rzayevə anası

**XANIM ƏLİMƏMMƏD QIZI RZAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi Bakı Apelyasiya Məhkəməsinin hakimi Həmid Həmidova anası

**XALİSƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyasının Birinci vitse-prezidenti, akademik İsa Həbibbəyli Tibb Universitetinin Onkologiya Klinikasının direktoru, akademik Əhliman Əmiraslanova əzizi

**NADİR KƏRİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Vaqif Canıyev Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfova qardaşı

**FƏXRƏDDİN NƏCƏFOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Mingəçevir Su Elektrik Stansiyaları Silsiləsi" MMC-nin direktoru Oqtay Pirverdiyev və MMC-nin kollektivi "Azərenerji" ASC-nin prezidenti Baba Rzayevə anası

**XANIM ƏLİMƏMMƏD QIZI RZAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktorun birinci müavini
Amil NOVRUZOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6856
Sifariş 298
Qiyməti 40 qəpik